Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 87 (8110) ÇƏRŞƏNBƏ AXŞAMI, 23 aprel 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEV qlobal hərəkatın liderinə çevrilir

## Azərbaycan 137 üzv dövlətin və 10 beynəlxalq təşkilatın təmsil olunduğu Qoşulmama Hərəkatına üç il rəhbərlik edəcək

İkinci Dünya müharibəsinin bitməsindən dərhal sonra başlayan yeni səssiz münaqişə - “soyuq savaş” artıq qovğaların aşkar silahlı müdaxilə ilə deyil, yeni, ancaq daha faciəli formada aparılacağını vəd edirdi. Məhz belə də oldu. Dünyanın yenidən bölüşdürülməsi adı altında fövqəlgüclərin onlarla ölkənin suverenliyinə ekspansiyası ötən əsrin 50-ci illərində beynəlxalq miqyasda acınacaqlı mənzərə yaratmışdı.

### Cəvahirləl Nehrudan İlham Əliyevədək...

...Və 64 il öncə -1955-ci ildə Cəvahirləl Nehru, Camal Abdel Nasir, Broz Tito kimi liderlərin təşəbbüsü ilə İndoneziyada yeni dünya nizamına etiraz edənlərin hərəkatı formalaşdı. Onlarla ölkə məlum iki siyasi-hərbi qütb arasındakı qarşıdurmaya cəlb edilməmək məramı, əslində isə onlardan qorunmaq səylərini birləşdirmək məqsədilə qüvvələrini səfərbər etməyə qərar verdi. Azadlığı yalnız kağız üzərində alan, ancaq müstəmləkəçilikləri hələ də davam edən dövlətlər üçün yeganə hüquqi müqavimət formasına çevrilən bu təşəbbüs 1961-ci ildə Qoşulmama Hərəkatının yaranması ilə yekunlaşdı.

İndi sıralarında 120-si daimi, 17-si isə müşahidəçi olmaqla 137 dövləti və 10 beynəlxalq təşkilatı birləşdirən hərəkat beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən mühüm çoxtərəfli mexanizmlərdən biridir. Əslində, ötən əsrin 90-cı illərindən sonra bu qurumun əhəmiyyətini itirərək tarixin arxivinə gedəcəyini düşünənlər çox idi. Lakin həm dünyadakı ədalətsizliklərin daha geniş miqyas alması, həm fövqəlgüclərin sadəcə ad dəyişdirməsi, ancaq ilhaq siyasətlərindən əl çəkməməsi, ən əsası isə yeni qlobal böhranın onlarla ölkənin dövlətçiliyini aşkar təhdid etməsi Qoşulmama Hərəkatının yeni və daha çevik formatda fəaliyyətini zəruri etdi.

Bu gün hərəkat yeni dünya düzənini öz maraqları kontekstində korrektə etməyə çalışan, milli dövlətləri domino effekti ilə ard-arda süquta uğradan məlum güclərin azğınlığına qarşı qlobal etiraz platformasıdır ki, onun da liderliyində artıq rəsmən İlham Əliyevdir, Azərbaycandır...

Beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etməyi əsas prioriteti elan edən təşkilatın üzvləri BMT və digər qurumlarda fəaliyyətlərini razılaşdırır, qərarların qəbulunda mühüm təsirə malik olurlar. Hərəkatın mütəmadi keçirilən sammitləri, konfransları üzvlər arasında əməkdaşlıq üçün mükəmməl foruma çevrilir.

Yeni dünya sisteminin reallıqlarına uyğunlaşdırılan fəaliyyətilə insan yaşayan bütün qitələrdə, bölgələrdə təmsilçi üzvü olan hərəkatın prinsipləri də ədalətlidir. 10 əsas müddəa içərisində dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət etmək; digər ölkələrin daxili işlərinə qarışmaqdan çəkinmək; böyük dövlətlərin hər hansı xüsusi maraqlarına xidmət etmək üçün kollektiv müdafiə tədbirlərinin istifadəsindən çəkinmək; digər ölkələrin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı yönəlmiş hər hansı bir fəaliyyətdən, eləcə də güc tətbiq etməkdən və güc tətbiq etməklə hədələməkdən imtina etmək; qarşılıqlı maraq və əməkdaşlığı təşviq etmək; ədalət və beynəlxalq öhdəliklərə hörmət etmək kimi məqsədlər əslində Qoşulmama Hərəkatının mahiyyətini müfəssəl izah edən məqamlardır.

### İlham Əliyev nümunəsi, Azərbaycan təcrübəsi hərəkatın fəaliyyətinin təkmilləşdirilməsi üçün ən uğurlu formuldur

Uzun illər balanslaşdırılmış xarici siyasət yürüdən, tarixinin ən qüdrətli dövründə isə tam müstəqil siyasətə keçdiyini bəyan edən Azərbaycan coğrafi vəziyyətinə görə əsrlər boyu fövqəlgüclərin maraq dairəsində olub və bu ona dövlətçiliyin süqutundan soyqırımlarınadək məşəqqətli talelər yaşadıb. Yəni Qoşulmama Hərəkatını yaradan səbəblər və onda birləşən ölkələrin acı təcrübələri bizə çox yaxından tanışdır. Onu da nəzərə alaq ki, Azərbaycanın üzləşdiyi və bu gün də həll edə bilmədiyi bütün problemlərin birbaşa kökü məhz fövqəlgüc amili ilə səciyyələnir.

Bu baxımdan ölkəmizin Qoşulmama Hərəkatına üzv olmaması məntiqsizlik sayılardı. Azərbaycan qurumda uzun müddət daşıdığı müşahidəçi statusunu 2011-ci ildə tamhüquqlu üzvlə əvəzləyərək, qısa dövrdə hərəkatın öncül fəallarından birinə çevrilib. Azərbaycan hərəkatın nüfuzunun artmasına, fəaliyyətinin təkmilləşməsinə davamlı şəkildə töhfələr verir. Həmçinin respublikamız bura üzvlüyü ilə beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlığa dair proseslərə daha yaxından cəlb olunub və çoxsaylı dövlətlərlə ikitərəfli münasibətlərin inkişafına əlverişli şərait əldə edib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə beynəlxalq ictimaiyyətin geniş məlumatlandırılması prosesində effektiv tribunaya çevrilən təşkilatın sənədlərində, qətnamələrində ölkəmizin ərazi bütövlüyünə hər zaman dəstək ifadə olunub. Məsələn, 2012-ci ildə Qoşulmama Hərəkatının Əlaqələndirici Bürosunun Yekun Sənədində Ermənistan və Azərbaycan arasında münaqişənin dövlətlərin ərazi bütövlüyünə hörmət, ərazi bütövlüyünə qarşı güc tətbiq etməmək və beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həll edilməsinə dəstək ifadə edilib. 120 ölkənin münaqişənin məhz Ermənistan və Azərbaycan arasında olmasını təsbit etməsi də çox əlamətdar məqam idi. Həmin il hərəkatın Dövlət və Hökumət Başçılarının 16-cı Zirvə Görüşünün Yekun Sənədində də üzv dövlətlər münaqişənin məhz Azərbaycan Respublikasının “ərazi bütövlüyü, suverenliyi və beynəlxalq miqyasda tanınmış sərhədləri daxilində” həllinə dəstəyi ifadə etmişlər. Həmçinin 2014-cü ildə də hərəkatın sammitinin yekun sənədində eyni məzmunlu münasibət bildirilib.

Beləliklə, Azərbaycan BMT-dən sonra ikinci ən mühüm və böyük təşkilat sayılan Qoşulmama Hərəkatına üç il sədrlik edəcək. Son onillikdə qlobal tərəfdaşlığın, sivilizasiyalararası əməkdaşlığın ən səmərəli platformasına çevrilən, onlarla beynəlxalq təşkilata həm sədrlik, həm də evsahibliyi edən Azərbaycana bu hərəkata rəhbərliyin həvalə olunmasını yalnız onun təcrübəsi ilə əlaqələndirmək yanlış olardı.

Bu qərarın qəbulunda təcrübədən daha üstün mövqe nüfuz və qətiyyət amilidir. İlham Əliyevin liderliyində Azərbaycanın hər cür təhdidlərə qarşı milli dövlətçiliyini əzmlə qoruması, məlum hər iki fövqəlgücün qarşısından geri çəkilməməsi, əsla güzəştə getməməsi və nəticədə onları rəqibdən tərəfdaşa çevirməsi böyük qələbədir və dünya bu zəfəri aydın görür.

*İlham Əliyev nümunəsi, Azərbaycan təcrübəsi Qoşulmama Hərəkatının fəaliyyətini təkmilləşdirməsi üçün ən uğurlu formuldur və yeni hədəflərin müəyyənləşməsində mühüm istinaddır.*

*Və Cəvahirləl Nehrudan başlanan azadlıq, müstəqillik, sülh estafetinin indi İlham Əliyevə həvalə olunmasının da əsas səbəbi məhz elə budur...*

***İxtiyar HÜSEYNLİ,***
***“Azərbaycan”***

## Qazax rayonunun Daş Salahlı-Ürkməzli-Dəmirçilər avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On üç min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Daş Salahlı-Ürkməzli-Dəmirçilər avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 6,8 milyon (altı milyon səkkiz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 22 aprel 2019-cu il*

## Ukraynanın yeni seçilmiş Prezidenti zati-aliləri cənab Vladimir Zelenskiyə

Hörmətli cənab Zelenski!

Ukraynanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Ukraynanı zəngin ənənələrə malik dostluq əlaqələri birləşdirir. İnanıram ki, bu ənənələri özündə bariz şəkildə əks etdirən dövlətlərarası münasibətlərimiz, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Ukrayna xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 22 aprel 2019-cu il*

## Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti zati-aliləri cənab Maytripala Sirisenaya

Hörmətli cənab Prezident!

Ölkənizdə törədilmiş partlayışlar nəticəsində çox sayda insanın həlak olması və yaralanması xəbəri bizi olduqca kədərləndirdi.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmi qətiyyətlə pisləyir, onun bütün təzahürlərinə qarşı mübarizədə beynəlxalq birliyin səylərini dəstəkləyirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Şri-Lanka xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 22 aprel 2019-cu il*




## 500 milyondan çox insan Azərbaycanı izləyəcək

### Ölkəmiz növbəti dəfə dünyanın idman mərkəzinə çevrilir

**Son illər beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün Bakı şəhərinin seçilməsi respublikamızın beynəlxalq nüfuzunun yüksəldiyini sübuta yetirir.**

Azərbaycanın yüksək təşəbbüskarlığı ilə paytaxtımızda təşkil edilən çoxsaylı mötəbər beynəlxalq tədbirlər Bakını artıq regionun diplomatik mərkəzinə çevirib. Hələ 7 il əvvəl “Eurovision-2012” kimi möhtəşəm musiqi yarışmasını yüksək təşkilatçılıqla keçirən Azərbaycan başqa mötəbər idman tədbirlərinə - “Bakı-2015” I Avropa Oyunlarına və “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarına uğurla evsahibliyi etdi.

Bu il isə paytaxtımız Avropa Gənclərinin XV Yay Olimpiya Festivalını və eyni zamanda UEFA Avropa Liqasının finalını qəbul edəcək.



Bunlara paralel olaraq bu mövsüm də daxil olmaqla 4 ildir Azərbaycan dünyanın bir nömrəli avtomobil yarışına - “Formula-1”ə uğurla evsahibliyi edir.

*Ardı 5-ci səh.*

**◆ Zəlzələ bölgəsindən reportaj**



## Tikinti bumu yaşanır

### Şamaxıda 66, Ağsuda 42, İsmayıllıda 20 yeni mənzil tikilir

Şimal bölgəsində baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılması istiqamətində Fövqəladə Hallar Nazirliyinin xüsusi komissiyası işini davam etdirir.

Qəbul edilən müraciətlər bir-bir araşdırılır və problemlərin həlli ilə bağlı qərar verilir. Hazırda Şamaxı, Ağsu və İsmayıllı rayonlarında evi qəzalı duruma düşmüş sakinlər üçün yeni mənzillər tikilməkdədir. May ayında evlər sahiblərinə təhvil veriləcək.

*Ardı 5-ci səh.*

## Əzmkarlığın bəhrəsi

Cəlilabadın yamyaşıl taxıl zəmiləri təkcə onu əkib-becərənlərin yox, rahat, dördzolaqlı Ələt-Astara magistral avtomobil yolu ilə gedib-gələnlərin də gözünü oxşayır. Yazın yağmurlu olması nəticəsində çöllərdə, düzlərdə bol yaşıl yem kütləsi əmələ gəlib.

Qoyun sürüləri, iribuynuzlu mal-qara həmin çəmənliklərdə otlayır. Bəzi ərazilərdə pambıq, bostan-tərəvəz əkinləri aparılır. İlin bu fəslində el arasında “təzə yol” deyilən yeni şose ilə hərəkət etmək sözün əsl mənasında adama ləzzət verir, gözümüz, ruhumuz dincəlir, rahatlıq tapır. Düşünürsən ki, 1994-cü ildə “Əsrin müqaviləsi” bağlanmasaydı, islahatlar həyata keçirilməsəydi, bugünkü inkişafdan, o cümlədən yeni Ələt-Astara magistral şose yolundan da söhbət açmaq qeyri-mümkün olardı. Təkcə bu yol deyil, respublikamızın şimal, qərb istiqamətlərinə gedən yollar da həmçinin. Rayonlararası, kəndlərarası yolların yenidən qurulması da bu qəbildəndir.

*Ardı 5-ci səh.*



# "Kommersiya sirri haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında", "İctimai televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Qiymətli metallar və qiymətli daşlar haqqında", "İnformasiya əldə etmək haqqında", "Daxili audit haqqında" və "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 11-ci, 15-ci və 27-ci bəndlərini rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Kommersiya sirri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 741; 2004, № 12, maddə 973; 2006, № 11, maddə 932; 2012, № 7, maddə 650; 2016, № 12, maddə 2004; 2017, № 12, I kitab, maddə 2224; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1410-VQD nömrəli Qanunu) 4.1.4-cü maddəsindən "(mühasibat)" sözü çıxarılsın.

**Maddə 2.** "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130; 2005, № 4, maddə 276; 2007, № 5, maddə 401, № 6, maddə 562, № 11, maddə 1070; 2008, № 11, maddə 960; 2009, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 4, maddə 276, № 10, maddə 839; 2011, № 7, maddə 590; 2013, № 7, maddə 790; 2014, № 7, maddə 772, № 12, maddə 1517; 2015, № 11, maddə 1262; 2016, № 3, maddə 406; 2016, № 6, maddə 975; 2017, № 4, maddə 521, № 11, maddə 1956, № 12, I kitab, maddə 2227; 2018, № 1, maddə 33, № 5, maddə 842, № 7, maddə 1389, № 12, I kitab, maddə 2466; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1415-VQD nömrəli və 1444-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 10.3.3-cü maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Bankın baş mühasibi və ya bu vəzifələri icra edən şəxs peşəkar mühasib olmalıdır.";

2.2. 31.2-ci maddəyə "mühasibat" sözündən sonra "uçotu" sözü əlavə edilsin;

2.3. 36.3-cü maddədən "maliyyə vəziyyəti haqqında məlumatı (sonuncu ay, rüb və il üçün mühasibat balansını, mənfəət və zərər haqqında hesabatı) və" sözləri çıxarılsın və həmin maddəyə "hesabat ili üçün" sözlərindən sonra "maliyyə hesabatlarını və" sözləri əlavə edilsin;

2.4. 43.2-ci maddədə "hesabatı" sözü "hesabatları" sözü ilə, "fəaliyyətini və maliyyə vəziyyətini" sözləri "maliyyə-təsərrüfat fəaliyyətini və maliyyə vəziyyəti barədə sistemləşdirilmiş məlumatları" sözləri ilə əvəz edilsin;

2.5. 43.3-cü maddədə "ayrıca olaraq və konsolidasiya əsasında fəaliyyətlərini və maliyyə vəziyyətini əks etdirən maliyyə hesabatının" sözləri "ayrıca və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin;

2.6. aşağıdakı məzmunda 43.4-cü maddə əlavə edilsin:

"43.4. Banklarda "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin təmin edilməsinə nəzarəti maliyyə bazarlarına nəzarət orqanı həyata keçirir.".

**Maddə 3.** "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 605; 2008, № 12, maddə 1049; 2010, № 4, maddələr 265, 276; 2012, № 6, maddələr 512, 529; 2013, № 1, maddə 18; 2015, № 7, maddə 819; 2016, № 10, maddələr 1601, 1609, № 11, maddə 1754; 2017, № 3, maddə 333; 2018, № 6, maddə 1179; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1411-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1.1-ci maddədən "normativ" sözü çıxarılsın;

3.2. 4.4-cü maddədə "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri "müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum" sözləri ilə əvəz edilsin;

3.3. 8.1-1-ci maddəyə "subyektləri" sözündən sonra "(kredit təşkilatları istisna olmaqla)" sözləri əlavə edilsin.

**Maddə 4.** "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 888; 2006, № 3, maddə 224, № 12, maddə 1005; 2007, № 5, maddələr 435, 442, № 12, maddə 1218; 2009, № 10, maddə 772; 2011, № 2, maddə 70; 2012, № 9, maddə 839; 2015, № 5, maddə 493, № 11, maddə 1281; 2016, № 12, maddə 1988; 2018, № 6, maddə 1170, № 12, I kitab, maddə 2478) 9.2.7-ci maddəsinə "mühasibat" sözündən sonra "uçotu" sözü əlavə edilsin.

**Maddə 5.** "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 12, maddə 984; 2007, № 6, maddə 562, № 10, maddə 938, № 12, maddə 1196; 2009, № 6, maddə 404, № 7, maddələr 507, 517; 2010, № 10, maddə 839; 2011, № 7, maddə 612; 2014, №11, maddə 1371; 2015, № 6, maddə 684, № 11, maddə 1296; 2016, № 3, maddə 405, № 11, maddə 1771; 2017, № 5, maddə 740, № 7, maddələr 1302, 1309, № 11, maddələr 1951, 1958) aşağıdakı dəyişikliklər edilsin:

5.1. XI fəsil "Mərkəzi Bankda mühasibat uçotu, maliyyə hesabatları və audit" adlandırılsın;

5.2. 57-ci maddə üzrə:

5.2.1. maddənin adı aşağıdakı redaksiyada verilsin:

"Mühasibat uçotu və maliyyə hesabatları";

5.2.2. 57.1-ci maddədə "hesabatı" sözü "hesabatları" sözü ilə əvəz edilsin;

5.2.3. 57.2-ci maddədə "hesabatının" sözü "hesabatlarının" sözü ilə əvəz edilsin və həmin maddəyə "digər məsələlər" sözlərindən sonra ", habelə Mərkəzi Bankın mühasibat uçotunun aparılması" sözləri əlavə edilsin.

**Maddə 6.** "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 10, maddə 870; 2007, № 11, maddə 1088; 2008, № 2, maddə 49, № 4, maddə 249, № 6, maddə 464; 2009, № 7, maddə 517; 2010, № 4, maddə 276; 2014, № 10, maddə 1164; 2016, № 12, maddə 2015; 2017, № 6, maddə 1026; 2018, № 7, I kitab, maddə 1391) 18.2.5-ci maddəsinə "mühasibat" sözündən sonra "uçotu" sözü əlavə edilsin.

**Maddə 7.** "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1080; 2007, № 8, maddə 756; 2010, № 3, maddələr 171, 172; 2011, № 3, maddə 162, № 7, maddə 617; 2012, № 5, maddə 405, № 7, maddə 653; 2015, № 2, maddə 81, № 11, maddə 1291; 2016, № 6, maddə 1009; 2017, № 3, maddə 329; 2018, № 7, I kitab, maddə 1419) 12.4-cü maddəsinə "Mühasibat" sözündən sonra "uçotu" sözü əlavə edilsin.

**Maddə 8.** "Daxili audit haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 565; 2008, № 11, maddə 960) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 4.1.2-ci maddədə "uçotu" sözü "uçotunun aparılmasının" sözləri ilə əvəz edilsin;

8.2. 8.3-cü maddədə "mühasibat (maliyyə)" sözləri "maliyyə" sözü ilə əvəz edilsin.

**Maddə 9.** "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 747; 2008, № 11, maddə 960; 2015, № 4, maddə 350; 2016, № 3, maddə 418; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1414-VQD nömrəli Qanunu) 3.1.2-ci maddəsində "mühasibat (maliyyə)" sözləri "maliyyə" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2019-cu il*

# "Kommersiya sirri haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında", "İctimai televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Qiymətli metallar və qiymətli daşlar haqqında", "İnformasiya əldə etmək haqqında", "Daxili audit haqqında" və "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1563-VQD nömrəli Qanununun tətbiqi və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Kommersiya sirri haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında", "İctimai televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Qiymətli metallar və qiymətli daşlar haqqında", "İnformasiya əldə etmək haqqında", "Daxili audit haqqında" və "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1563-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Kommersiya sirri haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında", "İctimai televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Qiymətli metallar və qiymətli daşlar haqqında", "İnformasiya əldə etmək haqqında", "Daxili audit haqqında" və "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Kommersiya sirri haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında", "İctimai televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Qiymətli metallar və qiymətli daşlar haqqında", "İnformasiya əldə etmək haqqında", "Daxili audit haqqında" və "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 68; 2012, № 6, maddə 541; 2013, № 5, maddə 493; 2015, №7, maddə 824; 2017, № 3, maddə 367; 2018, № 6, maddə 1195, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 1 mart tarixli 572 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "2.1.20-ci" sözlərindən sonra ", 4.4-cü" sözləri əlavə edilsin;

3.2. 2.7-ci bənddə "5.3-cü maddəsində" sözləri "4.4-cü və 5.3-cü maddələrində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 aprel 2019-cu il*

# "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1362-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 228; 2009, № 11, maddə 883; 2013, № 6, maddə 631; 2016, № 9, maddə 1467; 2017, № 5, maddə 756; 2018, № 2, maddə 185, № 12 (I kitab), maddə 2580; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 20 fevral tarixli 532 nömrəli Fərmanı) 2.3-cü bəndindən "28-ci," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 aprel 2019-cu il*

# Azərbaycan BMT ilə faydalı və hərtərəfli əməkdaşlıq edir



Aprelin 22-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi Qulam İsakzai ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın BMT ilə faydalı və hərtərəfli əməkdaşlıq etdiyini vurğulayan nazir ölkəmizin bu mötəbər təşkilat çərçivəsində hərbi sahədə də əməkdaşlığa başladığını vurğulayıb.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı görülən işlərdən danışılıb və BMT-nin bu istiqamətdə fəaliyyəti barədə fikir mübadiləsi aparılıb.

Müdafiə naziri bu yaxınlarda Nyu Yorkda keçirilən BMT tədbirlərində iştirakını xatırlayıb və burada keçirdiyi görüşlərin nəticələrini qonaqla müzakirə edib.

Q.İsakzai də öz növbəsində Azərbaycanın Əfqanıstanda keçirilən əməliyyatlar çərçivəsində beynəlxalq təhlükəsizliyə verdiyi töhfəni yüksək qiymətləndirib və Azərbaycan hərbçilərinin sülhə dəstək missiyalarında fəal iştirakına görə təşəkkürünü bildirib.

Görüşdə BMT çərçivəsində hərbi sahədə əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikası Burundi qaçqınlarına yardım edib

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMTQAK) üzv dövlətlərə etdiyi müraciətinə cavab olaraq, Azərbaycan Prezidentinin tapşırığına əsasən, Azərbaycan Respublikası Burundi qaçqınlarına humanitar yardımın göstərilməsi məqsədilə 30 min ABŞ dolları məbləğində maliyyə vəsaiti ayırıb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Qeyd edilib ki, sözügedən vəsait Tanzaniya, Konqo Demokratik Respublikası, Ruanda və Uqandada məskunlaşmış Burundi qaçqınlarının təcili humanitar tələbatının qarşılanması, onların öz ölkələrinə qayıdışının təşviq edilməsi və cəmiyyətə reinteqrasiya olunması kimi fəaliyyətlərin dəstəklənməsinə yönəldiləcək.

Məlumat üçün bildirmək istərdik ki, BMT QAK "2019-2020-cu illər üzrə Burundi Qaçqınlarına Regional Yardım Planı"nı təqdim edərək nəzərdə tutulmuş fəaliyyətlərin həyata keçirilməsi üçün 296,4 milyon ABŞ dolları məbləğində maliyyə vəsaitinin tələb olunduğunu açıqlayıb, Burundi qaçqınlarının qida, tibbi yardım, uşaqların təhsil və sair kimi təcili humanitar tələbatının qarşılanması məqsədilə üzv dövlətlərə müraciət edib.

# Hanoyda AZƏRTAC və Yonhap informasiya agentlikləri rəhbərlərinin görüşü olub



Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin Hanoyda keçirilmiş 44-cü iclası çərçivəsində Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) İdarə Heyətinin sədri, OANA-nın prezidenti Aslan Aslanov və Koreyanın Yonhap Agentliyinin rəhbəri Ço Sunq-bo arasında görüş olub.

Qeyd edək ki, bu il noyabr ayında Seulda OANA-nın Baş Assambleyası keçiriləcək. Həmin tədbirdə bu təşkilata sədrlik AZƏRTAC-dan Yonhap Agentliyinə keçəcək.

AZƏRTAC-ın müxbiri Vüqar Seyidov Hanoydan xəbər verir ki, görüşdə tərəflər çoxillik əməkdaşlığın nəticələrinə nəzər salıb, qarşılıqlı münasibətlərin müsbət dinamikasını vurğulayıblar. Həmçinin münasibətlərin indiki vəziyyətindən məmnunluq ifadə olunub, mövcud əlaqələrin həm ikitərəfli çərçivədə, həm də OANA formatında genişləndirilməsinin zəruriliyi qeyd edilib.

Cənubi Koreya və Azərbaycan, AZƏRTAC və Yonhap arasında münasibətlərin dostluq xarakteri daşıdığını vurğulayan Aslan Aslanov Seula səfərini, koreyalı həmkarlarının işi ilə tanışlığını, qarşılıqlı xəbər mübadiləsinə yol açan əməkdaşlıq sazişinin imzalanmasını xatırladıb.

AZƏRTAC-ın İdarə Heyətinin sədri daha sonra bildirib ki, Azərbaycanda onlarca Koreya şirkəti işləyir. Həmsöhbətini Bakıya dəvət edən A.Aslanov vurğulayıb ki, Yonhapın rəhbəri ölkəmizə səfəri zamanı Koreya məhsullarını Azərbaycanın hər yerində görə biləcək: Bakının yollarındakı avtomobillər, müəssisələrin ofislərindəki məişət texnikası, sakinlərin istifadə etdikləri kommunikasiya vasitələri və sair.

Yonhapın rəhbəri Ço Sunq-bo dəvətə görə OANA prezidentinə təşəkkür edib və iki ölkə arasında münasibətlərin yüksək səviyyəsindən məmnunluğunu bildirib. O, iki dost agentliyin əməkdaşlığı daha da inkişaf etdirmək istiqamətində səyləri artırmasının zəruriliyini vurğulayıb. Qeyd edib ki, bu məqsədlə hər iki ölkənin nümayəndələrindən ibarət qrupların həm təcrübə mübadiləsi aparmaq, həm də öz həmkarlarının nailiyyətləri ilə tanışlığı üçün qarşılıqlı səfərlərinin təşkil edilməsi faydalı olardı.

Xatırladaq ki, 2016-cı il noyabrın 16-18-də Bakıda Heydər Əliyev Fondunun və AZƏRTAC-ın təşkilati dəstəyi ilə Dünya Xəbər Agentliklərinin V Konqresi, OANA-nın XVI Baş Assambleyası keçirilib. Konqresin və assambleyanın Heydər Əliyev Mərkəzində keçirilmiş birgə açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev iştirak edib və geniş nitq söyləyib. Beləliklə, 2016-2019-cu illərdə həm Dünya Xəbər Agentlikləri Konqresinə, həm də OANA-ya sədrlik AZƏRTAC-a keçib.

AZƏRTAC-ın sədrliyi dövründə OANA İcraiyyə Komitəsinin Beyrut, Tehran və Hanoyda keçirilən iclaslarında təşkilatın fəaliyyətinin təkmilləşdirilməsi, müasir medianın aktual problemləri, xüsusən feyk xəbərlərlə mübarizə sahəsində qarşıda duran vəzifələrlə bağlı işgüzar müzakirələr aparılıb. Bütün bunlar təşkilatın müasirləşməsi, onun saytının funksionallığının artması işinə töhfə verib.

# Vyetnam KİV-i OANA İcraiyyə Komitəsinin 44-cü iclasına böyük diqqət ayırıb

Vyetnamın kütləvi informasiya vasitələri aprelin 19-dan 21-dək Hanoyda AZƏRTAC-ın sədrliyi və Vyetnam Xəbər Agentliyinin (VNA) təşkilatçılığı ilə keçirilmiş Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin 44-cü iclasına böyük diqqət ayırıb.

AZƏRTAC xəbər verir ki, VNA, hökumətin rəsmi xəbər portalı Chinhphu.vn, Vyetnam Kommunist Partiyasının rəsmi mətbu orqanı "Nhan Dan" qəzeti, Vietnam+, Phahluatplus.vn, Bacgiang.com.vn, Baotintuc.vn, La34.com.vn, Baolangson.vn, Quehuongonline.vn, Baobinhdinh.com.vn, Tapchithongtindoingoai.vn, Thethaovanhoa.vn, Danviet.vn, Daidoanket.vn, Vietnamnet.vn onlayn qəzet və nəşrləri, "Vietnam" jurnalı, VTV kanalı, "Nghe An" telekanalı, Vyetnam Xalq Ordusunun rəsmi qəzeti və digər KİV iclasın açılış mərasimi və gedişi, fotosərgi, Vyetnam Sosialist Respublikasının Baş naziri Nguyen Xuan Phukun iclasın bir qrup iştirakçısını qəbul etməsi, iclas iştirakçılarının Vyetnamın Kuanqnin vilayətinə səfəri və vilayət hökumətinin rəhbəri Nquyen Duk Lonq ilə görüşlərinə dair geniş xəbərlər, reportajlar, analitik materiallar təqdim ediblər.

Vyetnam Xəbər Agentliyi və ingilisdilli gündəlik "Vietnam news" qəzeti OANA-nın prezidenti, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov ilə müsahibə əsasında hazırlanan materiallarda təşkilatın işində müşahidə olunan fəallıqdan söz açılıb. Qeyd olunub ki, AZƏRTAC-ın 2016-2019-cu illəri əhatə edən sədrliyi dövründə OANA-nın internet səhifəsində xəbər yerləşdirən agentliklərin sayı 8-dən 24-ə çatıb. Bundan başqa, AZƏRTAC-ın OANA-da daimi katibliyin və təlim akademiyasının yaradılması ilə bağlı təkliflərindən də söz açılıb.

Xatırladaq ki, OANA İcraiyyə Komitəsinin 44-cü iclasında Türkiyənin Anadolu, Rusiyanın TASS, Avstraliyanın AAP, Cənubi Koreyanın Yonhap, Ərəb Əmirliklərinin WAM, Çinin Sinxua, İndoneziyanın Antara, Malayziyanın Bernama, İranın İRNA, Yaponiyanın Kyodo və digər agentliklərin rəhbərləri və nümayəndələri iştirak edirlər. İclasda OANA-nın cari məsələləri, media qarşısında duran çağırışlar, feyk xəbərlərlə mübarizə, faktların yoxlanması, agentliklərin üzləşdiyi problemlər müzakirə edilib, təşkilatın Mükəmməllik Mükafatının qalibləri elan olunub.

# Heydər Əliyev Mərkəzindəki "Oxu günü" maraqla qarşılanıb

Heydər Əliyev Mərkəzinin parkında ənənəvi olaraq təşkil edilən "Oxu günü" keçirilib.





AZƏRTAC xəbər verir ki, tədbir Heydər Əliyev Mərkəzi, Təhsil Nazirliyi, "Regional İnkişaf" İctimai Birliyinin təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Gənclər Fondunun və "Hədəf Nəşrləri"nin tərəfdaşlığı ilə reallaşıb.

"Gəlin birgə oxuyaq!" şüarı altında keçirilən "Oxu günü"nün məqsədi yeniyetmə və gənclər arasında mütaliə mədəniyyəti və oxu vərdişinin inkişafı, kitaba marağın artırılmasıdır.

Tədbirdə paytaxtın müxtəlif ümumtəhsil məktəblərinin və liseylərinin şagirdləri təqdimatlarla çıxış ediblər. Müxtəlif dram əsərlərindən səhnələr, tamaşalar təqdim olunub, ustad dərsləri, interaktiv yarışlar keçirilib. 3 saylı Uşaq-Gənclər İnkişaf Mərkəzinin bədii kollektivinin iştirakı ilə musiqili proqram təqdim olunub.

Tədbir çərçivəsində bədii-elmi kitabların sərgisində nəşriyyat və kitabxanalar öz stendlərində müxtəlif nəşrləri nümayiş etdiriblər.

Təhsil naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında bildirib ki, Beynəlxalq Oxu Günü ərəfəsində Bakı məktəblərinin iştirakı ilə keçirilən bu tədbir kitaba bağlılığı artırmağa yönəlib və mütaliə mədəniyyətinin formalaşmasına öz töhfəsini verəcək. Təhsil Nazirliyi il ərzində bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirir. C.Bayramov qeyd edib ki, əsas məqsəd müxtəlif üsullarla, fərqli yollarla uşaqlara kitab oxumağın üstünlüklərini aşılamaqdır. Çünki şagirdlərimizin şəxsiyyət kimi formalaşmasında, onların dünyagörüşünün artırılmasında mütaliə əvəzsiz rol oynayır. Nazir belə tədbirlərin davamlı şəkildə təşkil olunmasının vacibliyini vurğulayıb.

Xatırladaq ki, 1996-cı il aprelin 23-dən dünyada, 1997-ci ildən isə Azərbaycanda Ümumdünya Kitab və Müəllif Hüquqları Günü qeyd olunur. Bu barədə qərar 1995-ci ildə Parisdə, UNESCO-nun baş konfransında qəbul edilib.

# Fransanın Nant şəhərində Azərbaycan məktəbi açılıb

Aprelin 20-də Fransanın Nant şəhərində Azərbaycan məktəbinin açılışı olub. Bu məktəb Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələrinə əsasən azərbaycanlıların kompakt yaşadığı Nant şəhərində yaradılıb. Məktəb üçün kirayəyə götürülən yeri 3 ay ərzində Fransa Azərbaycanlılarının Koordinasiya Şurası və Azərbaycan İcması təmir edib.



AZƏRTAC xəbər verir ki, "Qarabağ" məktəbi adlandırılan təhsil ocağının açılışına bu ölkədə yaşayan 90 nəfərə yaxın azərbaycanlı qatılıb. Məktəb fəaliyyətə başlayana qədər ərazidə yaşayan ailələrdən 25 uşaq məktəbdə şagird kimi qeydiyyatdan keçib.

Məktəbin açılışında Azərbaycanın Fransadakı səfirliyinin siyasi məsələlər üzrə müşaviri Eldar Məmmədov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Türkiyənin Nantdakı baş konsulu Ebrar Çubukçu, Azərbaycanın Fransadakı səfirliyinin konsulluq məsələlərinə məsul katibi Zaur Fərhadov, Fransa Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi - Nantda fəaliyyət göstərən Fransa Azərbaycanlıları Mədəniyyət Assosiasiyasının rəhbəri Toğrul Zeynalov, eyni zamanda, Fransada Azərbaycanlıların Koordinasiya Şurasının üzvü olan təşkilatların sədr və nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Fuad Muradov Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığı ilə açılan "Qarabağ" məktəbinin əhəmiyyətindən danışıb və bu cür uğurlu layihələrin davamlı olmasının vacibliyini qeyd edib. Məktəbə "Qarabağ" adının verilməsinin də xüsusi bir siyasi məna kəsb etdiyini bildirən sədr gələcəkdə bu adda məktəblərin açılmasının daha da geniş vüsət alacağını bildirib.

O, eyni zamanda, Fransada Azərbaycan və türk diasporlarının birgə fəaliyyətinin vacibliyindən də danışıb.

Türkiyənin Nantdakı baş konsulu Ebrar Çubukçu çıxışında qeyd edib ki, Nantda Azərbaycan məktəbinin açılması vacib və əhəmiyyətli addımdır. O bildirib ki, bu məktəbin yaxınlığında türk dərnəyi fəaliyyət göstərir və gələcəkdə məktəblə dərnək arasında sıx əlaqə qurulacaq.

Açılış mərasimində digər çıxış edənlər də Fransada belə bir məktəbin yaradılmasının mühüm addım olduğunu diqqətə çatdırıblar. Əminliklə qeyd ediblər ki, dövlət başçısı tərəfindən uğurla həyata keçirilən diaspor siyasəti sayəsində gələcəkdə daha böyük nailiyyətlər əldə olunacaq.

Yeni məktəbdə kitabxana da fəaliyyət göstərir ki, burada da ölkəmiz haqqında həm fransız, həm də Azərbaycan dilində kitablar toplanıb və gələcəkdə bu kitabxananın komitə tərəfindən daha da zənginləşdirilməsi nəzərdə tutulub.

Məktəbin açılışında milli geyimli uşaqlar şeirlər söyləyib, "Sarı gəlin" mahnısının sədaları altında rəqs edib, yallı gediblər.

# Paytaxtda əhali ilə fəal görüşlər aylığına başlanır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları rəhbərlərinin yerlərdə əhali ilə görüşlərinin keçirilməsi ilə bağlı tapşırığına uyğun olaraq yerlərdə sakinlərin arzu və istəklərinin, problemlərinin daha yaxından öyrənilib həllində yardımçı olunması məqsədilə Bakı Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə bu il aprel ayının 24-dən əhali ilə fəal görüşlər aylığına start verilir.

İcra hakimiyyətindən AZƏRTAC-a bildiriblər ki, aylıq çərçivəsində paytaxt rayonlarında sakinlərlə "Açıq qapı" günləri keçiriləcək. Sakinlərin mənzil-məişət, kommunal və digər problemlərinin bilavasitə yerlərdə öyrənilməsi və aradan qaldırılması, onların dövlət qurumları nümayəndələri ilə təmaslarını daha da yaxınlaşdırmaq məqsədilə keçirilən aylıq çərçivəsində təşkil olunan "Açıq qapı" tədbirləri təsdiq olunmuş qrafikə uyğun olaraq hər bir rayonun mənzil-kommunal təsərrüfatı birliklərinin binalarında və qəsəbə mədəniyyət evlərində keçiriləcək. Görüşlərdə Bakı Şəhər İcra Hakimiyyətinin məsul nümayəndələri, yerli icra strukturlarının rəhbərləri ilə yanaşı, rayondakı təsərrüfat xidmətlərinin, o cümlədən elektrik, təbii qaz, su və kanalizasiya, istilik idarələrinin rəhbərləri də iştirak edəcək, sakinləri ən çox narahat edən sual və problemlər dinləniləcək, araşdırılacaq, aradan qaldırılması üçün tədbirlər görüləcək və sakinlərin sualları cavablandırılacaq.

Görüşlərdə həm də bütünlükdə Bakı şəhəri və müvafiq rayonun ərazisində görülən və görülməsi nəzərdə tutulan işlər barədə vətəndaşlara məlumat veriləcək.

**2019-cu il aprel-may aylarında Bakı şəhər sakinlərinin problemlərinin həlli ilə bağlı yerlərdə keçiriləcək "Açıq qapı" tədbirləri barədə məlumat**

| № | Rayonun adı | Görüşün tarixi və vaxtı | Keçirilmə yeri | Qeyd |
|---|---|---|---|---|
| 1 | Nərimanov rayonu | 24.04.2019 16:00-20:00 | Nərimanov rayon MKTB-nin binası, Əbdüləziz Dəmirçizadə küç. 22 | |
| 2 | Xəzər rayonu | 26.04.2019 16:00-20:00 | Xəzər rayonu, "Şimal" DRES yaşayış sahəsi, Lev Starçuk küçəsi, Mədəniyyət evi | |
| 3 | Xətai rayonu | 29.04.2019 16:00-20:00 | Xətai rayon MKTB-nin binası, Ramiz Quliyev küç. 23 | |
| 4 | Sabunçu rayonu | 01.05.2019 16:00-20:00 | Sabunçu rayon MKTB-nin binası. Bakıxanov qəsəbəsi, Muxtar Fətəliyev 72 | |
| 5 | Binəqədi rayonu | 03.05.2019 16:00-20:00 | Binəqədi rayon MKTB-nin binası, Əli Məmmədov küç. 10 | |
| 6 | Yasamal rayonu | 05.05.2019 11:00-15:00 | Yasamal rayonu, 225 nömrəli məktəb, Ələsgər Ələkbərov küç. 8 | |
| 7 | Nizami rayonu | 07.05.2019 16:00-20:00 | Nizami rayon MKTB-nin binası, R.Rüstəmov küç. 28 | |
| 8 | Nəsimi rayonu | 11.05.2019 15:00-19:00 | Nəsimi rayon MKTB-nin binası, Səməd Vurğun küç. 112 | |
| 9 | Suraxanı rayonu | 13.05.2019 16:00-20:00 | Suraxanı rayon MKTB-nin binası, Əhməd Mehbalıyev küç. 3 | |
| 10 | Qaradağ rayonu | 15.05.2019 16:00-20:00 | Qaradağ rayon Mədəniyyət sarayı, Seymur Orucov küç. 23 | |
| 11 | Səbail rayonu | 17.05.2019 16:00-20:00 | Səbail rayonu, 239 nömrəli məktəb, Badamdar qəsəbəsi, Məktəbli küç. 16 | |
| 12 | Pirallahı rayonu | 19.05.2019 11:00-15:00 | Pirallahı rayon MKTB-nin binası, Kamil Rzayev küç. 25 | |

# M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında ənənəvi olaraq "Açıq qapı" günü keçirilib

Aprelin 20-də M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialında 2019-2020-ci tədris ili üçün bu ali məktəbə qəbulun şərtləri və qaydaları ilə tanışlıq məqsədilə "Açıq qapı" günü keçirilib. Tədbirə 700-dən çox şagird qatılıb.



AZƏRTAC xəbər verir ki, tədbiri açan Moskva Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinin Ümumi topologiya və həndəsə kafedrasının müdiri, professor Yuri Sadovniçi "Açıq qapı" günündə iştirak edən professor-müəllim heyətini təqdim edib.

Bildirib ki, M.V.Lomonosov adına MDU-nun Bakı filialı Azərbaycan Prezidentinin fərmanına müvafiq olaraq 2008-ci ildə yaradılıb. Bakı filialı əgər 2008-ci ildə üç fakültə - tətbiqi riyaziyyat, kimya və filologiya fakültələri ilə fəaliyyətə başlayıbsa, sonralar psixologiya, iqtisadiyyat və fizika fakültələri açılıb. Tədris 2012-ci ildən əsasən Bakı filialının Xocasəndə yerləşən mükəmməl kampusunda aparılır. Burada tələbələrin təhsil alması, eləcə də istirahəti üçün hər cür şərait yaradılıb. Məzunlara bütün dünyada tanınan M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin diplomu verilir. Bakalavr səviyyəsini bitirənlər həmçinin burada magistratura təhsili ala bilərlər. Təhsilin magistratura səviyyəsi filialda yeni olan fizika fakültəsi istisna olmaqla, digər fakültələrin hamısında var. Fizika fakültəsində də magistratura perspektivi olacaq. On bir il ərzində Bakı filialı xeyli genişlənib. Ümumilikdə 600-dən çox məzun bu müddət ərzində MDU-nun diplomunu alıb. Onlar Azərbaycanda və xaricdə müxtəlif nüfuzlu qurumlarda çalışırlar. Məzunlar Bakı filialında bilik qazandıqlarından çox razıdırlar.

Mart ayında Rusiyanın paytaxtında M.V.Lomonosov adına MDU-da "Universitetlər və bəşəriyyətin gələcəyi" mövzusunda keçirilmiş forumda rektor, akademik Viktor Sadovniçinin müasir dövrün çağırışlarından rəqəmsallaşma, ekologiya, beyin, kosmosla bağlı məsələləri qeyd etdiyini xatırladan professor Yuri Sadovniçi bu sahələrlə bağlı universitetdə yüksək səviyyədə tədris aparıldığını, Bakı filialının MDU-nun müvafiq fakültələri ilə sıx əməkdaşlıq etdiyini bildirib. Vurğulayıb ki, Bakı filialının komandası Moskvaya gedərək kosmik peykin buraxılması müsabiqəsində iştirak edib və layiqli yer tutub.

Diqqətə çatdırılıb ki, Bakı filialında tədris M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin tədris planları və proqramları əsasında müasir innovasiya texnologiyaları və tədris üsullarının tətbiqi ilə keçirilir.

Qəbul komissiyasının məsul katibi Denis İlyutko qəbul qaydaları haqqında ətraflı məlumat verib. Bildirib ki, Azərbaycanda buraxılış imtahanı ilə bağlı dəyişikliyə müvafiq olaraq MDU-nun Bakı filialı qəbulla bağlı bəzi tələblərdə dəyişiklik edib. Qəbulla bağlı bütün məlumatlar M.V.Lomonosov adına MDU-nun Bakı filialının http://msu.az/ saytında yerləşdirilib. Əgər abituriyentin, ümumiyyətlə, M.V.Lomonosov adına MDU ilə bağlı müəyyən sualları varsa, onların cavabını M.V.Lomonosov adına MDU-nun Mərkəzi Qəbul Komissiyasının http://cpk.msu.ru/ saytından öyrənə bilər.

MDU-nun Bakı filialında həm dövlət sifarişi, həm də ödəniş əsasında təhsil almaq mümkündür. 2019-2020-ci tədris ilində qəbul planında filologiya fakültəsində cəmi 33 - dövlət sifarişi əsasında 30 yer (o cümlədən "Rus dili və ədəbiyyatı" tədris proqramı üzrə 10, "Müasir Qərbi Avropa dilləri və ədəbiyyatı" tədris proqramı, ingilis və italyan dilləri üzrə 20) və 3 ödənişli yer ("Rus dili və ədəbiyyatı" üzrə 1, "Müasir Qərbi Avropa dilləri və ədəbiyyatı", ingilis və italyan dilləri üzrə 2) nəzərdə tutulub. Tətbiqi riyaziyyat fakültəsində 26 yer (25-i dövlət sifarişi, 1-i ödənişli), kimya fakültəsində 27 yer (25-i dövlət sifarişli və 2-si ödənişli), psixologiya fakültəsində 30 yer (25-i dövlət sifarişli, 5-i ödənişli), fizika fakültəsində 27 yer (25-i dövlət sifarişli və 2-si ödənişli) planlaşdırılıb. İqtisadiyyat fakültəsində cəmi 27 yer - dövlət sifarişli 25 yer (iqtisadiyyat üzrə 13, menecment üzrə 12) və 2 ödənişli yer (1 iqtisadiyyat, 1 menecment) ayrılıb. Qəbul imtahanları iyulun 5-dən 11-dək keçiriləcək. MDU-nun Bakı filialının saytında imtahan qrafiki təqdim edilib.



Magistraturaya 5 fakültə üzrə qəbul aparılacaq. Filologiya fakültəsi üzrə cəmi 13 yer - dövlət sifarişi əsasında 10 (o cümlədən rus dili üzrə 3, ingilis dili üzrə 4, italyan dili üzrə 3), ödənişli 3 yer (rus dili, ingilis dili və italyan dilinin hər biri üzrə 1 yer) ayrılıb. Tətbiqi riyaziyyat fakültəsində 6 yer (5-i dövlət sifarişli, 1-i ödənişli), kimya fakültəsində cəmi 7 yer - 6-sı dövlət sifarişli (o cümlədən üzvi kimya, fiziki kimya və neft kimyası təhsil proqramları üzrə hər birinə 2 yer), 1-i ödənişli (qeyd olunan təhsil proqramlarından birinə), psixologiya fakültəsində 14 yer - 12-si dövlət sifarişli (o cümlədən psixoloji inkişaf proqramı üzrə 6, "Koqnitiv və emosional pozulma proseslərində klinik-psixoloji reabilitasiya" proqramı üzrə 6 yer) və 2-si ödənişli (qeyd olunan müvafiq proqramların hər birinə 1 yer) nəzərdə tutulur. İqtisadiyyat fakültəsində cəmi 12 yer ayrılıb. Bu yerlərdən 10-u dövlət sifarişli ("Beynəlxalq biznes" proqramı üzrə), 2-si ödənişlidir. Magistraturaya imtahanlar iyunun 14-də və 17-də keçiriləcək.

Azərbaycan Respublikasında büdcə hesabına ali təhsil almış vətəndaşlar istisna edilməklə, respublika vətəndaşları üçün təhsil pulsuzdur. Həmçinin əvvəllər pulsuz təhsil almamış və Azərbaycanda daimi yaşayan əcnəbilər üçün təhsil ödənişsizdir.

Filiala qəbul imtahanına buraxılmaq üçün Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilən (mayın 12-si və ya 19-u) imtahanda iştirak etmək lazımdır. Bu zaman istənilən ixtisas qrupu üzrə azı 150 bal toplamaq tələb olunur.

Ərizələri yalnız bir fakültəyə vermək olar. Lakin fakültədə bir neçə tədris proqramı varsa, bütün istiqamətlər üzrə ərizə vermək mümkündür. Eyni zamanda, prioriteti göstərmək lazımdır. Qəbul barədə ərizə elektron formada, elektron rəqəmsal imza - FİN kod əsasında verilə bilər. Ərizə forması http://msu.az/ saytında və ya DİM-in saytında (http://dim.gov.az/) doldurula bilər. Bakalavrlar üçün qeydiyyat mayın 29-dan iyunun 28-dək, magistratura üçün qeydiyyat mayın 7-dən iyunun 10-dək aparılır. Sualı olanlar info@msu.az ünvanına yaza bilərlər.

Dövlət büdcəsi hesabına artıq təhsil almış Azərbaycan vətəndaşları, əvvəllər pulsuz təhsil almış və Azərbaycanda daimi yaşayan əcnəbilər MDU-nun Bakı filialında ödənişli əsasla təhsil ala bilərlər.

MDU-nun Bakı filialı hər fakültə üzrə ödənişsiz kurslar təşkil edir. Kurslara əvvəlcədən yazılmaq lazımdır.

MDU-nun Fizika fakültəsinin Ümumi fizika kafedrasının professoru, fizika-riyaziyyat elmləri doktoru, fizika fakültəsinin elmi-tədris işinin əlaqələndirilməsinə məsul Aleksandr Saletski diqqətə çatdırıb ki, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin yalnız Bakı filialında fizika fakültəsi fəaliyyət göstərir. Fakültədə fizika fənni, həmçinin riyaziyyat yüksək səviyyədə tədris olunur. Qısa müddət ərzində fakültədə 7 laboratoriya praktikumu yaradılıb. Hazırda yüksək səviyyədə elmi laboratoriya təşkil edilir.

Fizika-riyaziyyat elmləri namizədi, MDU-nun mexanika-riyaziyyat elmi-tədris işinin əlaqələndirilməsinə məsul Yevgeni Mıçka tətbiqi riyaziyyat fakültəsi haqqında məlumat verib. Qeyd edib ki, fakültədə oxumaq çətindir, lakin məzunların iş problemi olmur. Məzunlar müxtəlif dövlət qurumlarına, həmçinin "British Petroleum", SOCAR, "Azercell", "Azərkosmos" və digər nüfuzlu şirkətlərə işə düzəlir, maliyyə, bank sahələrində, sığorta şirkətlərində işləyirlər. Onlar nəinki Azərbaycanda, xaricdə də işləyə bilərlər. Fakültədə I və II kurslarda tələbələr fundamental fənləri öyrənirlər. Sonra tələbə elmi rəhbər seçməlidir. Üçüncü kursda tələbə kurs işi, dördüncü kursun sonunda isə diplom işi yazır və müdafiə edir. Beləliklə, II kursdan sonra tələbələr elmi fəaliyyətə cəlb olunur. Fakültənin ən yaxşı tələbələri müxtəlif müsabiqələrdə, konfranslarda iştirak edirlər. Magistraturadan sonra Moskvada aspirantura təhsili almaq imkanı da var. MDU-nun Bakı filialında riyaziyyat fənni üzrə bazar günü məktəbi fəaliyyət göstərir. Bazar günü məktəblərinə gələnlərin 50 faizi sonra filialda təhsil alır.

"Açıq qapı" günündə MDU-nun Filologiya fakültəsinin Rus ədəbiyyatı tarixi kafedrasında filologiya elmləri namizədi Andrey Fedotov da çıxış edib. Bildirib ki, fakültədə universitet üzrə tədris edilən fənlərlə yanaşı, linqvistik, kulturoloji istiqamətlərdə də fənlər öyrədilir. Tələbələrin müasir humanitar biliklərin ən qabaqcıl trendləri ilə tanış olmaq imkanı var. Tələbələrin dil biliklərini möhkəmləndirmək üçün onlara xaricdə staj keçmək imkanı yaradılır. Filialın məzunlarına müxtəlif sahələrdə tələbat çoxdur; onlar səfirliklərdə, şirkətlərdə tərcüməçi işləyə, mətbuat xidmətində fəaliyyət göstərə, tədris edə bilərlər və s.

Kimya elmləri doktoru, professor Aleksey Kopılov kimya fakültəsi haqqında ətraflı məlumat verib, filialda müvafiq sahə üzrə tədris üçün ən yüksək standartlara cavab verən şəraitin yaradıldığını bildirib. Kimyanın sənaye, tibb, texnologiya, məişət və digər sahələrdə mühüm rolundan danışan professor Aleksey Kopılov bu elmi öyrənməyin vacibliyini vurğulayıb. O, fakültədə Moskvadan beynəlxalq dərəcəli müəllimlərin gəlib mühazirə oxuduğunu, seminar, praktikum apardığını bildirib. Qeyd edib ki, fakültədə ən müasir avadanlıqla təchiz edilmiş 12 laboratoriya, habelə ən müasir dərs otaqları var. Təsadüfi deyil ki, 47-ci Beynəlxalq Kimya Olimpiadası M.V.Lomonosov adına MDU-nun Bakı filialında keçirilib.

MDU-nun Psixologiya fakültəsinin elmi-tədris işinin əlaqələndirilməsinə məsul Leonid Babanin, ümumiyyətlə, MDU-nun Bakı filialında təhsil almağın maraqlı olmasından danışıb. Qeyd edib ki, bu il 10 yaşı tamam olan psixologiya fakültəsinin məzunları iş tapmaqda əsla çətinlik çəkmir. Magistraturadan sonra Moskvada aspirantura təhsili də almaq mümkündür. Qəbul zamanı MDU-nun proqramı əsasında biologiya fənnindən imtahan vermək çətinlik yaratsa da, Bakı filialında biologiya üzrə bazar günü məktəbi fəaliyyət göstərir ki, bu, abituriyentlərin biliklərini artırmağa imkan yaradır.

İqtisad elmləri namizədi, iqtisad fakültəsinin tədris-elm işinin əlaqələndirilməsinə məsul Ceyhun Hüseynov diqqətə çatdırıb ki, fakültə 2012-ci ildə yaradılıb. Bu il fakültənin bakalavr səviyyəsi üzrə dördüncü, magistr üzrə ikinci buraxılışı olacaq. İqtisadiyyat fakültəsinin populyarlaşdığını deyən Ceyhun Hüseynov ildən-ilə müsabiqənin də böyük olduğunu bildirib. O, iqtisad elmlərinə tələbatdan danışıb, fakültədə tədris edilən proqramların fərqli və çox yüksək səviyyədə olduğunu söyləyib, bakalavr və magistratura təhsili haqqında ətraflı məlumat verib.

Çıxış edənlər tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıblar.

Sonra tədbir iştirakçılarına xüsusi avtobuslarda Xocasəndə MDU-nun Bakı filialının kampusuna getmək imkanı yaradılıb.

Beləliklə, tədbir iştirakçıları bu ali təhsil müəssisəsinin filologiya, tətbiqi riyaziyyat, kimya, psixologiya, iqtisadiyyat və fizika fakültələrində bakalavr və magistr hazırlığı ilə bağlı hərtərəfli məlumat əldə ediblər.

23 aprel Müəllif Hüquqları Günüdür

# Milyonları bir araya gətirən missiya

Əsası ulu öndər Heydər Əliyev tərəfindən yaradılmış Müəllif Hüquqları Agentliyi müstəqillik dövründə fəaliyyət dairəsini daha da genişləndirmişdir. Bu illər ərzində respublikamızda əqli mülkiyyət, o cümlədən qeyri-maddi mədəni irsin qorunması sahəsində qanunvericilik, idarəçilik yaradılmışdır.

Müəllif Hüquqları Gününün ölkəmizdə hər il qeyd edilməsi kitablardan və mütaliədən zövq almağı təşviq edir. Naşirlər, kitab ticarətçiləri və kitabxanaları təmsil edən təşkilatlar bu günü daha böyük təntənə ilə keçirirlər. Bu, həm də kitablara və müəlliflərə dünya miqyasında ehtiram göstərmək kimi ülvi bir missiyanı özündə birləşdirir. Odur ki, Müəllif Hüquqları Günü dünyanın hər yerində milyonlarla insanı bir araya gətirən platformaya çevrilib.

Son illər ölkəmizdə aparılan struktur və iqtisadi islahatlar çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində əqli mülkiyyət sistemində də əhəmiyyətli təşkilati və funksional dəyişikliklər baş vermişdir. Prezident İlham Əliyevin "İstehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 20 aprel tarixli sərəncamı ilə Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin və Patent və Əmtəə Nişanları Mərkəzinin bazasında Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi yaradılmışdır.

Yenidənqurma nəticəsində qurumun iş prinsipi əhəmiyyətli dərəcədə dəyişmişdir. Belə ki, agentlik tərəfindən müəllif hüquqları daha etibarlı şəkildə təmin edilir, piratçılığa qarşı ciddi mübarizə aparılır, sənaye mülkiyyəti obyektlərinin idarə edilməsi günün tələbləri səviyyəsində qurulur, patent və əmtəə nişanlarına dair müraciət edən şəxslər üçün şəffaflıq təmin olunur. Agentlik ötən il Təhsil Nazirliyi ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə hazırladığı "Universitet və elmi-tədqiqat institutlarında əqli mülkiyyət siyasəti üçün milli layihə"nin icrası ilə əlaqədar bir neçə beynəlxalq konfrans və seminar keçirmişdir. ÜƏMT-nin baş direktoru Frensis Qarrin "Bilik və innovasiya iqtisadiyyatına əqli mülkiyyətin dəstəyi" mövzusunda beynəlxalq konfransın, regional seminar və sərginin iştirakçısı olmuşdur.

Xatırladaq ki, respublika Elmi-Texniki Kitabxanası da Əqli Mülkiyyət Agentliyinin tabeliyinə verilmişdir. 1957-ci ildə yaradılmış, unikal müəllif kitablarını, patent və normativ-texniki sənədlər fondunu özündə cəmləşdirən respublika əhəmiyyətli bu kitabxanada (RETK) həm Azərbaycan, həm keçmiş SSRİ, həm də dünya ölkələrinin sahə üzrə ümumilikdə 14.862.581 çap vahidi toplanmışdır. RETK (özü və fondları) müxtəlif dövrlərdə ayrı-ayrı ünvanlarda yerləşmişdir. Neçə nəsil alim, professor və akademiklərin yetişdirilməsində xüsusi rol oynayan və minlərlə namizədlik və doktorluq dissertasiyaları, araşdırmalar, ixtira və texniki-normativ sənədlərin hazırlanmasında müstəsna məlumat mənbəyi olan bu zəngin kitabxananın əsas binası vaxtilə Bakı şəhəri, Azərbaycan prospektində (keçmiş H.Hacıyev) arxitektur binanın birinci mərtəbəsində yerləşmişdi. Həmin binanın 2003-cü ildə kommersiya məqsədi ilə özəlləşdirilməsi nəticəsində kitabxana digər ünvana köçürülmüşdür. Nəticədə RETK-in ərazisi təxminən iki dəfə azalmışdır. Bu da ədəbiyyatların yerləşdirilməsində çətinliklərə səbəb olmuşdur.

Hazırda ölkəmizdə iqtisadi potensialın insan kapitalına çevrilməsi yolunda ardıcıl və sistemli tədbirlər həyata keçirilir. Ötən ilin oktyabrında Azərbaycanda ilk dəfə beynəlxalq "İnnovasiya həftəsi" adlı sərgi və konfrans keçirilmişdir. Tədbirdə Prezidentin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası"nda qarşıya qoyulan hədəflərə çatmaq üçün görülən işlər nəzərə çatdırılmışdır. Dövlət başçısı İlham Əliyevin yürütdüyü siyasət sayəsində müasir çağırışlara cavab verən, islahatlarla zəngin olan və gələcəyə yönəldilən "Azərbaycanın inkişaf modeli"nin formalaşdığı, bu modelin biznes mühitinin inkişafını, sərmayə qoyuluşunu stimullaşdırdığı, innovasiyalara açıq olan və sosialyönümlüyü nəzərə alan yeni iqtisadiyyat modeli olduğu vurğulanmış, "Made in Azerbaijan" brendinin təşviqi ilə əlaqədar görülən işlər diqqətə çatdırılmış, həmçinin innovasiyalara yönələn əqli mülkiyyət siyasətinin məqsədləri açıqlanmışdır.

İqtisadi sahədə elmi tədqiqat işlərinin tətbiqinin əhəmiyyəti nəzərə alınmaqla "Azərbaycan universitetlərində və elmi tədqiqat müəssisələrində əqli mülkiyyət sahəsində siyasət haqqında", "Milli brendlərimizi qoruyaq (Milli brendlərin hüquqi qorunması və onların müəllif-hüquq nöqteyi-nəzərindən qeydiyyatı)", "Qlobal innovasiya indeksi", "Kreativ iqtisadiyyat və kiçik və orta sahibkarlığın innovasiyalı inkişafı", "İnnovasiyalı inkişaf və əqli mülkiyyət", "İT-İP:Əqli mülkiyyətin gələcəyinə baxış" və s. kitabçalar yenidən işlənərək təkrar nəşr edilmişdir.

Ötən ilin iyun ayında Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında Anlaşma Memorandumu" imzalanmışdır. Ölkə rəhbərinin digər fərmanı ilə Azərbaycan Respublikası 2013-cü il 27 iyun tarixli "Dərc olunmuş əsərlərin kor, görmə qüsurlu və ya çap məhsullarını oxumaqla bağlı başqa əlilliyi olan şəxslər üçün əlçatanlığını asanlaşdırmağa dair Mərakeş Müqaviləsi"nə qoşulmuşdur. Nəzərdə tutulmuş yeni hüquqi çərçivə kor və digər görmə əlilliyi olan şəxslərin elm, ədəbiyyat və incəsənət əsərlərindən istifadəsinə beynəlxalq səviyyədə təminat vermişdir.

İl ərzində 333 müəllifin 568 əsəri qeydiyyatdan keçirilmiş, əsərin qeydiyyatı haqqında 574 şəhadətnamə verilmişdir. "Elektron xidmət" bölməsi vasitəsilə müəlliflərin 21 müraciəti əsasında 16 əsər qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 16 şəhadətnamə verilmişdir. Bununla yanaşı, ötən il 15 müqavilə qeydiyyatdan keçirilmişdir. Əsərlərin rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-cı ildən 2019-cu il 1 yanvar tarixədək agentlikdə bütövlükdə 12122 əsər və əlaqəli hüquqların obyektləri, o cümlədən "Elektron xidmət" bölməsi vasitəsilə 97 müəllifin 193 əsəri qeydiyyata alınmışdır. Bundan əlavə, ötən il müəllif hüququna əsaslanan kreativ sənayenin 2017-ci il üzrə milli iqtisadiyyat sahələrinə dair faktiki statistik göstəriciləri və dövlət büdcəsi rəqəmləri təhlil edilmiş, müəllif hüququna əsaslanan milli iqtisadiyyat sahələrində istehsalın həcmi müəyyən olunmuş və bu sahələrin ölkə üzrə ümumi daxili məhsulda xüsusi çəkisi hesablanmışdır.

Struktur islahatları çərçivəsində agentliyin nəzdində yaradılmış Apelyasiya Şurasına 119 müraciət daxil olmuşdur. Onlardan 118-i Apelyasiya Şurasının funksional fəaliyyəti, 1-i isə əmtəə nişanının geniş tanınmış hesab edilməsi ilə bağlı qaydaların izah edilməsi ilə əlaqədar olmuşdur. Tam və ya qismən təmin edilmiş ərizələrin sayı 25, rədd edilmiş ərizələrin sayı 10, baxılmamış saxlanmış ərizələrin sayı (geri götürülmüş ərizə) 3, işə baxılması təxirə salınmış ərizələrin sayı isə 33 olmuşdur.

Görülən tədbirlər nəticəsində 2005-ci illə müqayisədə piratçılığın səviyyəsi kitab satışı sahəsində 61 faizdən 25 faizə, audiovideo məhsul bazarında 90 faizdən 60 faizə, proqram təminatında 96 faizdən 74 faizə düşmüşdür.

Mədəniyyət nümunələrimizin ermənilər tərəfindən mənimsənilməsi cəhdlərinə qarşı mübarizə tədbirləri çərçivəsində "Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir" mövzusunda konfrans keçirilmiş, çoxsaylı çıxışlar edilmiş, "Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya "Armeniya" ərazisinin həqiqi sakinləri haqqında" Azərbaycan, rus və ingilis dillərində kitab hazırlanmış, erməni nümunələri kimi qələmə verilən xalq mahnılarımızın və müəllif əsərlərinin, o cümlədən "Aman Tello" xalq mahnısının Azərbaycan xalqına məxsusluğunu elmi, tarixi, etimoloji və hüquqi baxımdan təsdiq edən arayış hazırlanmışdır. Bu KİV-də yayılmış, erməni saxtakarlıqlarını ifşa edən "Erməniçilik uydurmaları digər xalqların hüquqlarına xələl gətirir", "Armənskiy qenosid" ili armənski terror?", "Moralnıy terror: protiv nematerialnoqo i materialnoqo kulturnoqo nasledie", "Öz-özünü təkzib edən "Erməniçiliyin müəllif hüququ", "Erməni müəlliflərinin kitablarındakı uydurmalara "müəlliflik hüququ","Fövqəladə hallar və əqli mülkiyyət hüquqları ilə qorunan mədəni dəyərlər" (Azərbaycan və ingilis dillərində), "Erməni yadelli nağılları" kitabı və "Gəldim, gördüm..., mənimsədim" kitabçası (Azərbaycan, rus, ingilis və fransız dillərində) təkrar çap edilərək il ərzində agentliyin keçirdiyi tədbirlərdə xarici qonaqlara, nümayəndələrə və tədbir iştirakçılarına paylanmışdır.

"Elektron xidmət" vasitəsilə müəlliflərin 20 müraciəti əsasında 15 əsər qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatına dair 15 şəhadətnamə verilmişdir.

Ötən il agentliyin nümayəndələri ölkə xaricində 20-dən artıq beynəlxalq tədbirdə iştirak və çıxış etmiş, beynəlxalq əlaqələrlə bağlı 102 sənəd layihəsinə dair təklif və rəylər verilmişdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Bakı Ali Neft Məktəbinin təşkilatçılığı ilə IV SOCAR Forumu işə başlayıb

Bakıda SOCAR-ın dəstəyi, Bakı Ali Neft Məktəbinin və Böyük Britaniyanın "Confidence Capital" şirkətinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş 4-cü SOCAR Beynəlxalq "Xəzər və Mərkəzi Asiya: Ticarət, Logistika, Neft emalı, Neft-kimya" Forumu başlanmışdır.




Forumun açılış mərasimində çıxış edən Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov qonaqları salamlayaraq ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümünə həsr edilən forumun keçirilməsinin artıq ənənəvi hal aldığını və bu tədbirin Xəzər regionunun neft təqvimində ən mühüm hadisə olduğunu bildirmişdir. Forumun ayrı-ayrı regionları və şirkətləri təmsil edən mütəxəssislərə Xəzər regionu və Mərkəzi Asiyada neft-qaz sənayesinin başlıca inkişaf istiqamətləri, eləcə də ticarət, logistika, neft emalı və neft-kimya sahələrində ən böyük beynəlxalq layihələr barədə informasiya mübadiləsi, habelə region ölkələrindən olan həmkarlar və tərəfdaşlarla birgə mövcud əməkdaşlığın möhkəmləndirilməsi və yeni işgüzar əlaqələrin qurulması üçün geniş imkanlar açdığını söyləyən rektor tədbirin ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilən neft strategiyasının işıqlandırılması üçün unikal bir platforma olduğunu vurğulamışdır.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, SOCAR-ın Birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə, BP AGT regionunda Əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezident Bəxtiyar Aslanbəyli, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev və Ukrgasvydobuvannya şirkətinin kommunikasiyalar üzrə direktoru Volodimir Gaidaş forum barədə fikirlərini tədbir iştirakçıları ilə bölüşərək onun işinə uğurlar arzuladılar.

Xatırladaq ki, 2016-cı ildən etibarən hər il təşkil olunan forumda bu il 20-dən artıq ölkədən 300-ə qədər nümayəndə, o cümlədən Xəzər və Mərkəzi Asiya regionlarının yanacaq-energetika, neft-kimya komplekslərinin və logistika strukturlarının, həmçinin aparıcı yerli və beynəlxalq şirkətlərin top menecerləri, sahəsinin öndə gedən ekspertlər, analitiklər, diplomatik korpus nümayəndələri və digər çoxsaylı mütəxəssislər iştirak edirlər. İştirakçılar Azərbaycanın neft-qaz sənayesinin inkişafı, Xəzər regionu və Mərkəzi Asiyada neft və qaz bazarları, karbohidrogenlərin logistika və tranzit potensialı, başlıca ixrac marşrutları, xam neft və neft məhsullarının ticarət dövriyyəsi, neft emalı və neft-kimya müəssisələrinin modernizasiyası, neft və qaz emalı sahəsində innovativ texnologiyalar və bir çox digər sahələrdə çoxsaylı məruzələr və ekspert rəyləri ilə tanış olmaq imkanı əldə edirlər. Forum iştirakçılarının həmçinin SOCAR Karbamid, SOCAR Metanol, SOCAR Polimer zavodlarına və Səngəçal Neft Terminalına səfərləri nəzərdə tutulmuşdur.

***"Azərbaycan"***

# Problemli kreditləri olan vətəndaşlara kompensasiyaların ödənilməsi başlandı

Dünəndən Prezident İlham Əliyevin 2019-cu il fevralın 28-də təsdiq etdiyi "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərman çərçivəsində vətəndaşlara kompensasiyaların ödənilməsinə start verilmişdir.




Onu da qeyd edək ki, hələ bir neçə gün əvvəl sözügedən fərmandan irəli gələn vəzifələrin icrası ilə bağlı Maliyyə Bazarlarına Nəzarət Palatasında vətəndaşlardan daxil olan müraciətlərin araşdırılması üçün Apelyasiya Komissiyası yaradılmışdır. Komissiyaya daxil olan müraciətlərə "Vətəndaşların müraciəti haqqında" qanuna uyğun olaraq 15, əlavə öyrənilmə və yoxlanılma tələb edildikdə 30 iş günü müddətində baxılır.

Ödənişlərə gəldikdə, Azərbaycan Banklar Assosiasiyasının yaydığı məlumata görə, onlar təsdiq edilmiş mexanizmə əsasən, fəaliyyətdə olan bankların müştərilərinə həmin banklar, bank olmayan kredit təşkilatı və ləğvetmə prosesində olan bankların müştərilərinə isə "Azərpoçt" MMC vasitəsilə veriləcək. 500 manatdan yuxarı kompensasiyanın verilməsi ödəniş kartlarına köçürülməklə, 500 manat və ondan aşağı olan kompensasiyalar pul köçürülməsi yolu ilə həyata keçiriləcək. Kompensasiya ödənişləri zamanı fiziki şəxslərdən heç bir komissiya haqqı tutulmayacaq.

Məlumatda daha sonra bildirilir ki, kompensasiya ödənişlərinin operativ təmin edilməsi məqsədilə fiziki şəxslər növbəlilik prinsipi əsasında kompensasiyanın veriləcəyi yer, tarix və zəruri sənədlər barədə banklar tərəfindən əvvəlcədən SMS və ya zəng yolu ilə məlumatlandırılacaq və onlar ayrılmış vaxtda müvafiq banka yaxınlaşaraq kompensasiyalarını ala biləcəklər.

Bundan başqa, kompensasiya ödənişi ilə əlaqədar kredit təşkilatlarında vətəndaşlara operativ xidmət göstərilməsi üçün ayrıca sahə müəyyən olunmuş və müvafiq mütəxəssislər ayrılmışdır. Bu müddətdə banklar xüsusi iş rejimində işləyəcəklər.

Onu da qeyd edək ki, yayılan məlumatlara görə, fiziki şəxslərin problemli kreditləri ilə bağlı kompensasiyanın ödənişi üçün ilk maliyyələşmə tranşı həyata keçirilmişdir. Maliyyə Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, Prezidentin məlum fərmanının icrası çərçivəsində nazirlik tərəfindən aprelin 19-da Maliyyə Bazarlarına Nəzarət Palatasının təqdimatı əsasında bankların, ləğvetmə prosesində olan, eləcə də bank olmayan kredit təşkilatlarının Mərkəzi Bankdakı hesablarına 350,8 milyon manat tranş ayrılmışdır.

Bundan əlavə, "Azərpoçt" MMC-nin İctimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, 500 manatdan aşağı kompensasiyası olan müştərilər artıq MMC-nin 1497 poçt şöbəsinə müraciət edib pullarını ala bilərlər. 500 manatdan yuxarı olan kompensasiyalar isə mayın 1-dən "Azərpoçt" tərəfindən emissiya olunmuş kartlar vasitəsilə ödənilməyə başlayacaq.

Məlumat üçün bildirək ki, "Azərpoçt" MMC-dən 121 min nəfərə yaxın vətəndaşın kompensasiya alması nəzərdə tutulub. Onlardan 76 min 836 nəfəri 500 manatdan aşağı kompensasiya alan şəxslərdir. Eyni zamanda qurumun rəsmi saytında həmin şəxslərin problemli kreditlərinə dair bölmə açılmışdır. Vətəndaşlar şəxsiyyət vəsiqələrinin seriyasını və fin kodunu daxil etməklə alacaqları kompensasiyanın məbləğini və onun veriləcəyi poçt şöbəsinin ünvanını öyrənə bilərlər. "Azərpoçt"dan kart vasitəsilə kompensasiya alacaq müştərilər qurumun 77 şöbəsinin xidmətindən istifadə edəcəklər.

***R.MƏMMƏDOV,***
***"Azərbaycan"***

# Azərbaycan dövlətinin gücü qarşısında istənilən riyakar plan iflasa məhkumdur

Azərbaycan bu gün tarixinin əzəmətli dövrünü yaşayır. Davamlı sosial-iqtisadi yüksəlişə nail olması, regionun lideri statusunu qazanması, beynəlxalq məsələlərdə söz sahibi kimi çıxış etməsi, müstəqil və qətiyyətli xarici siyasət yürütməsi respublikamızı xarakterizə edən mühüm göstəricilərdir. Son bir il isə Azərbaycan müasir tarixini əlamətdar hadisələrlə bir qədər də zənginləşdirdi.

"Cənub qaz dəhlizi"nin və onun digər seqmentlərinin istifadəyə verilməsi Avrasiya regionunun enerji xəritəsinə əhəmiyyətli korrektlər edən mühüm hadisələr oldu. Artıq TAP kəmərinin insaşında son tamamlanma işləri aparılır və gələn ildən Azərbaycan qazı Avropa bazarlarına çatdırılacaq. Bununla da Azərbaycanın enerji təhlükəsizliyi məsələlərində mövqeləri daha da yüksələcək, Avropa İttifaqı ilə ölkəmizin münasibətləri yeni keyfiyyət mərhələsinə qədəm qoyacaq.

Azərbaycan təkcə neft-qaz deyil, nəqliyyat-tranzit imkanları baxımından da regionun aparıcı dövlətidir. Hazırda Şərqdən Qərbə və Cənubdan-Şimala əsas və ən sərfəli nəqliyyat yolları ölkəmizdən keçir. Respublikamızın malik olduğu nəqliyyat infrastrukturu yüklərin müxtəlif istiqamətlərdə ən qısa zamanda çatdırılmasında böyük rol oynayır. Xüsusən son dövrlərdə Azərbaycanın bu istiqamətdə potensialını artırması diqqəti daha çox cəlb edir. Hətta NATO-nun rəhbərliyi də Əfqanıstana və geriyə daşımalar zamanı istifadə etdiyi Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətini təqdir edir.

Bütün bunlarla yanaşı, Azərbaycan dünyaya tolerantlıq və multikulturalizm nümunələrini, sabitliyin və əmin-amanlığın müasir modelini təqdim edir, mədəniyyətlər və sivilizasiyalararası dialoq qurur. Bakıda ən müxtəlif aktual mövzular ətrafında saysız-hesabsız mötəbər beynəlxalq tədbirlərin keçirilməsi, möhtəşəm idman yarışlarının, Avropa və dünya çempionatlarının təşkil edilməsi Azərbaycanın dünyaya verdiyi böyük töhfələrdir. Təbii ki, bütün bunlar respublikamızın imicinin yüksəlməsinə mühüm təsir edən məsələlərdir.

Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycan bir neçə il əvvəl baş vermiş qlobal iqtisadi problemdən də xilas oldu. Hazırda milli iqtisadiyyatımız yeni inkişaf göstəriciləri ortaya qoyur. Xüsusən vətəndaşların sosial rifahının yüksəldilməsi ilə bağlı son dövrlər dövlət başçısı tərəfindən bir sıra mühüm fərman və sərəncamlar imzalandı. Lakin bu hələ son deyil, dövlət başçısının bu günlərdə qeyd etdiyi kimi, pensiya və əməkhaqlarının artımı davam edəcək.

Bütün bu uğurlu proseslərin fonunda diqqəti çəkən başqa bir mühüm məqam Azərbaycandakı möhkəm xalq-iqtidar birliyidir. Heç kim və heç bir qüvvə bu birliyi sarsıda bilməz. Respublikamızın inkişafının təməlində dayanan əsas səbəblərdən biri də məhz bu birlik və ölkə vətəndaşlarının Prezident İlham Əliyevə göstərdikləri yüksək etimaddır.

Uğurlarımız dostlarımızı sevindirir, düşmənlərimizə isə gözdağı olur. Aydın məsələdir ki, Azərbaycanın yüksəlişi və hər bir nailiyyəti Ermənistanı, Amerika və Avropadakı erməni lobbisini ciddi narahat edir. Bununla yanaşı, gənc müstəqil respublika kimi Azərbaycanın nailiyyətləri, inkişaf etməkdə olan dövlətlərin sırasında öncüllərdən olması, müstəqil siyasət yeridərək böyük nüfuz qazanması demokratik inkişaf yolunda qazandığı uğurlar erməni təəssübünü çəkən Qərb siyasi dairələrində də daim qısqanclıqla qarşılanır. Bunu indiyədək də ölkəmizə qarşı həyata keçirilməsi davam edən təzyiqlər, bəzi siyasi dairələrin qarayaxma kampaniyaları da göstərir. Azərbaycanın demokratik imicinə zərbə vurmaq niyyəti ilə xarici media orqanlarında sifarişli yazılar dərc edilir, telesüjetlər hazırlanır, müxtəlif siyasi güclərin təsiri altında olan qeyri-hökumət təşkilatları obyektivlikdən uzaq bəyanatlar verir, qərəzli çıxışlar edirlər. Bu kampaniyalar əsasən də Azərbaycanın evsahibliyi etdiyi böyük tədbirlər ərəfəsində və ya ölkəmizin hansısa beynəlxalq uğura imza atdığı vaxt həyata keçirilir.

Ölkəmizə qarşı belə qərəzli kampaniyaların icraçısı rolunda əsasən "Trensparency İnternational", "Amnisty İnternational", OCCRP və digər təşkilatlar çıxış edir. Onlar dünyada demokratik dəyərlər uğrunda "çalışdıqlarını" iddia etsələr də, əslində bəzi siyasi dairələrin aləti funksiyasını yerinə yetirirlər. Bu təşkilatlar yalan, böhtan, dezinformasiya xarakterli məlumatlar yaymaqla, qərəzli hesabatlar hazırlmaqla, Azərbaycanı beynəlxalq qınaq obyektinə çevirməyə, ölkə daxilində "5-ci kolon" vasitəsilə ictimai narazılıq yaratmağa çalışırlar. Lakin təcrübə göstərir ki, belə çirkin kampaniyalar həmişə iflasa uğrayıb.

Azərbaycanın isə uğurları ildən-ilə artan xətlə davam edir. Qarşıdan gələn dövrdə Bakıda bir sıra mühüm tədbirlər keçiriləcək, ölkəmiz Qoşulmama Hərəkatına sədrlik edəcək. Bütün bunlardan, o cümlədən yaxın gələcəkdə "Cənub qaz dəhlizi" ilə Azərbaycan qazının Avropa bazarlarına çatdırılacağından, respublikamızla Aİ arasında strateji tərəfdaşlıq sazişinin imzalanacağından narahat olan antiazərbaycançı şəbəkənin ölkəmizə qarşı yeni qarayaxma kampaniyası başladacaqları istisna edilmir. Çünki təcrübə göstərir ki, həmin dairələr zaman-zaman Azərbaycanın uğurlarına ləkə yaxmaq, nüfuzdan salmaq üçün çirkin kampaniyalar təşkil edirlər.

Azərbaycan cəmiyyəti bu cəhdlərin arxasında hansı maraqların durduğunu yaxşı bilir. Lakin təcrübə həm də onu göstərir ki, ölkəmizə təzyiq göstərmək, onu öz yolundan döndərmək mümkün deyil və ola da bilməz. Azərbaycan öz yolu, aydın mövqeyi, qətiyyətli və müstəqil siyasəti olan dövlətdir. Buna görə antiazərbaycançı dairələr dərk etməlidirlər ki, respublikamıza qarşı həyata keçirdikləri planların heç biri məqsədinə çatmayaraq iflasa uğrayacaq. Çünki Azərbaycan dövlətinin gücü və sarsılmaz xalq-iqtidar birliyinin qarşısında istənilən riyakar plan iflasa məhkumdur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Bazara faraş məhsullar daxil olur, qiymətlər ucuzlaşır

Bazar iqtisadiyyatının öz qaydaları var. Və bu qaydalardan biri də qiymətləri tələb və təklifin müəyyən etməsidir. İkinci tərəfdən, istehsalçı satışda sərbəstdir və bazarı özü seçir. Bu, bazar iqtisadiyyatının tələblərinə əməl edən bütün ölkələrdə belədir.



Son günlər soğanın, kartofun və digər kənd təsərrüfatı məhsullarının qiymətində xeyli artım müşahidə olunurdu. Bu, ilk növbədə, köhnə məhsulların azalması, təzələrinin isə yetişməməsi ilə bağlı olan və hər yerdə hər il rast gəlinən təbii hal idi.

Digər tərəfdən, qeyd etdiyimiz kimi, istehsalçılar yetişdirdikləri məhsulları xarici bazara satmaqla daha çox gəlir əldə etmək hüququna malikdirlər. Bu baxımdan götürək istehlak bazarlarındakı son mənzərəni. Türkiyədə cari mövsüm bir çox kənd təsərrüfatı məhsullarının istehlak bazarında qıtlığı, bu üzdən qiymətlərin bahalaşması Azərbaycan istehsalçı və tədarükçülərini qardaş ölkəyə məhsul ixrac etməyə sövq etdi. Mövsümün sonu ilə bağlı olan məhsulun həcminə idxal səbəbindən yaranan qıtlıq da gəldi və beləliklə, ölkədə bir müddət əvvəl 3-4 kilosu 1 manata satılan soğanın qiyməti 3-4 dəfə bahalaşdı.

Belə hallarda bütün ölkələr daxili bazarı tənzimləmək üçün idxala üstünlük verir. Hətta bu zaman idxal məhsulları gömrük rüsumundan azad edilir ki, qiymətlər aşağı olsun, alıcıların tələbatı ödənilsin. Azərbaycanda bu cür addımlar atıldı, bahalığın ömrü uzun olmadı.

İndi bazarlara bol faraş məhsullar çıxarılır ki, bu da ölkədə fermerlərə dövlət tərəfindən yaradılan imkandan qaynaqlanır. Hazırda bazarlarda quru soğanın, kartofun, digər kənd təsərrüfatı məhsullarının qiyməti gündən-günə ucuzlaşır və proses getdikcə sürətlənir. Bu isə o deməkdir ki, bahalıq artıq arxada qalmışdır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***




# 500 milyondan çox insan Azərbaycanı izləyəcək




*Əvvəli 1-ci səh.*

## Azərbaycan yenə nümunə göstərir

Aprelin 26-28-də dünyanın diqqəti yenidən Azərbaycana yönələcək. Bu müddətdə “Formula-1” Azərbaycan Qran-prisini 500 milyondan çox tamaşaçı izləyəcək.

“Formula-1” üzrə dünya çempionatı 1950-ci ildən keçirilir. Artıq 69 ildir ki, bu yarış böyük infrastruktura malik olan ölkələrdə təşkil edilir. Bu cür tədbirlərin şəhərin küçələrində keçirilməsi təcrübəsi mövcuddur və belə yarışlar Monako, İspaniya, Sinqapur kimi ölkələrdə baş tutur. Hər il təşkil olunan “Formula-1” yarışları ayrıca Qran-pri mərhələsindən ibarət olur və ilin sonunda həm pilotlar, həm də komandalar arasından qaliblər müəyyən edilir.

“Formula-1”in dünyada kifayət qədər azarkeşləri var. Bu nəzərə alınaraq Bakı Şəhər Halqasında da tamaşaçıların yarışı canlı və təhlükəsiz izləmələrinə hər cür imkan yaradılıb. Bakı Şəhər Halqasının müxtəlif yerlərində tamaşaçı tribunaları quraşdırılıb. Bu mötəbər yarışın yüksək səviyyədə işıqlandırılmasına təcrübəli müxbir və fotomüxbirlər cəlb edilib.

Beləliklə, dünyanın ən böyük informasiya holdinqləri, eləcə də 100-dən çox ölkənin xəbər agentlikləri Bakıda keçiriləcək “Formula-1” yarışı barədə xəbərləri dünyaya yayacaqlar.

## “F1”ə maraq böyükdür

Bakıda, sadəcə, möhtəşəm yarış keçirilməyəcək, həmçinin bu tədbir vasitəsilə paytaxtımız və ümumilikdə milli mədəniyyətimiz dünya ictimaiyyətinə təbliğ ediləcək. Azərbaycanın dünyada daha geniş səviyyədə tanıdılmasında bu tədbirin əhəmiyyəti çox böyükdür.

Modern üslubda hazırlanan instalyasiya şəhərin qonaqlarına və sakinlərinə “Formula-1”in builki mövsümünün 4-cü yarışı olan Azərbaycan Qran-prisinin başlamasına qalan vaxtı göstərir. Paytaxtın ən işlək küçələrinin biri üzərində quraşdırılmış gerisayım saatı ictimaiyyəti Azərbaycanda ilk dəfə keçiriləcək “Formula-1” yarışına diqqəti cəlb etməklə yanaşı, bu yarışa marağın artmasına kömək edir.



## Ən sürətli şəhər treki

“Formula-1” üzrə dünya çempionatının 4-cü mərhələsi olan Azərbaycan Qran-prisində sürət həvəskarlarını möhtəşəm yarış gözləyir. Yarışların keçirildiyi şəhər treki Bakı Şəhər Halqası (BŞH) adlanır və uzunluğuna görə dünyada ikincidir. 20 müxtəlif çətinlikli döngəsi və 6 km-lik uzunluğu ilə 51 dövrədə tamamlanacaq.





Şəhər treki pilotlardan xüsusi dəqiqlik tələb edən İçəri şəhər ətrafı dar yoxuş hissəsi, inanılmaz sürət əldə etməyə imkan verən 2,2 km-lik dənizkənarı hamar hissəsi və s. bir sıra özəllikləri ilə yarışı canlı olaraq tribunalardan və ya televiziya qarşısında izləyən “Formula-1” azarkeşləri üçün əsrarəngiz bir şouya çevriləcək.

Yarış zamanı “Formula-1” pilotları UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olan İçəri şəhər tarix-memarlıq qoruğunu, şəhərin müasir göydələnlərini və Xəzərin sahilboyu hissəsini özündə birləşdirən Bakının ecazkar simasını görəcəklər. Layihənin müəllifi bütün müasir “Formula-1” treklerinin memarı olan Herman Tilkedir. Trekdə yarış avtomobillərinin hərəkəti saat əqrəbinin əksi istiqamətində olacaq. Ümumilikdə 30 minə yaxın tamaşaçı eyni anda yarışı tribunalardan canlı izləyə biləcək.

Start və finiş xətti Azadlıq meydanında olacaq. Həmçinin burada “Formula-1” Paddok klubu, komandaların boksları və pit-leyn qurulacaq. 19 və 20-ci döngələrdən sonra 1500 metrlik məsafədə 340 km/saat sürət yığacaq pilotları kəskin döngə gözləyir. 90 dərəcəli sol döngədən sonra pilotlar 300 metrlik məsafədə görkəmli rus şairi A.S.Puşkinin adını daşıyan küçədən keçəcəklər.

2-ci döngədən sonra “Formula-1” bolidlərini trekin Xaqani küçəsi boyu 1 km uzanan və uzunluğuna görə ikinci böyük sürətlənmə xətti sayılan hissəsi gözləyir. Sonra pilotlar yenidən kəskin döngə ilə qarşılaşacaqlar.

1-ci və 3-cü döngə pilotlara ötmə üçün əla şərait yaradacaq. Şəhər treklərində çox nadir hallarda iki uzun sürətlənmə xətti görmək olar. 3-cü döngədən sonra pilotlar sol tərəfə - Bülbül prospektinə doğru yol alacaqlar. 240 metrlik məsafəni düz keçdikdən sonra 90 dərəcəli sağ döngə ilə qarşılaşacaqlar. Bu düz yolun sol tərəfində Sahil bağı yerləşir. Daha sonra pilotlar Zərifə Əliyeva küçəsinə dönəcəklər, kiçik bucaqlı döngədən sonra 350 metr uzunluğunda məsafə qət edəcəklər.

Növbə 5-ci və 6-cı döngəyə çatır. Bu döngələr pilotları Neftçilər prospektinin əksi istiqamətindəki yola yönəldəcəkdir. Bura trekin iki fərqli hissəsinin yan-yana olduğu bölmədir. Təxminən 300 metr məsafədə “Formula-1” bolidləri eyni küçədə əks istiqamətlərdə hərəkət edəcəklər, onları yalnız baryerlər ayıracaq. Bununla da trekin müasir Bakının mərkəz hissəsini göstərən görüntüləri sona çatır. 7-ci döngədən sonra pilotlar Əziz Əliyev küçəsi ilə İçəri şəhərin qala divarlarına yönələcəklər.

Bolidlər 500 metrə yaxın məsafəni ensiz küçələrdə qət edəcəklər. Trekin ən çox çətinliyə malik hissəsi 8-ci döngədən sonra başlayır. Bu döngədən sonra yol maksimal şəkildə daralır və bu hissədə pilotları kəskin yoxuş gözləyir.

8-ci və 11-ci döngələr trekin İçəri şəhər ətrafındakı hissəsində yerləşir. Trekin bu hissəsində İçərişəhərin görüntüləri daha müasir küçələrlə davam edir.

13 və 14-cü döngələr kiçik bucaqlı olduğundan buradan pilotlar, demək olar ki, əyləc sistemindən istifadə etmədən keçəcəklər. 15-ci döngədən sonra pilotları kəskin eniş gözləyir. 16-cı döngə pilotları yenidən Neftçilər prospektinə yönəldəcək. Məhz bu küçədə 1-ci döngəyə tərəf sürətlənmə prosesi başlayacaq. Pilotlar yalnız 17 və 18-ci döngələrdə sürəti nisbətən azaldacaqlar. 19-cu döngədən sonra pilotlar 1500 metr məsafə qət edərək yenidən 1-ci döngəyə gəlib çatacaqlar.

Beləliklə, yalnız Cənubi Qafqazın deyil, Avropanın tolerantlıq, sülh və inkişaf mərkəzlərindən biri kimi tanınan Azərbaycan “Formula-1” ilə uğur estafetini növbəti dəfə layiqincə davam etdirəcək.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Tikinti bumu yaşanır

## Şamaxıda 66, Ağsuda 42, İsmayıllıda 20 yeni mənzil tikilir

*Əvvəli 1-ci səh.*

Dövlət başçısının verdiyi tapşırıqların icrası ilə maraqlanmaq üçün Şamaxıya etdiyimiz səfər zamanı qarşılaşdığımız mənzərə bir daha deyilənləri təsdiq etdi. Rayonda sürətli tikinti-quruculuq işləri gedir.

Fövqəladə Hallar Nazirliyi tərəfindən yaradılan xüsusi komissiyanın rəhbəri Kamran Əliyev deyir ki, artıq Şamaxıda 3 ev tikilərək sakinlərə təhvil verilib. Əlavə edək ki, zəlzələdən dərhal sonra fəsadların aradan qaldırılması və tikinti işlərinin aparılması üçün Prezident İlham Əliyev Ehtiyat Fondundan ümumilikdə 13 milyon manat vəsait ayırıb.

Hazırda isə FHN-in Şamaxı, Ağsu və İsmayıllı üzrə komissiyaları ciddi rejimdə çalışır. Kamran Əliyev deyir ki, komissiyaya Şamaxı üzrə 5498, Ağsu üzrə 2412, İsmayıllı üzrə isə 1272 müraciət daxil olub. Şamaxıda 5486, Ağsuda 2220, İsmayıllıda 1255 evə baxış keçirilib. Müəyyən edilib ki, Şamaxıda 270, Ağsuda 344, İsmayıllıda 112 qəzalı mənzil var. Şamaxıda 1257, Ağsuda 388, İsmayıllıda 389 mənzilin bərpasına və gücləndirilməsinə ehtiyac var.

Rayon mərkəzindəki müxtəlif küçələrdə aparılan tikinti-quruculuq işləri ilə tanış olduq. Bildirildi ki, hazırda 84 ev tamamilə sökülüb. 66 evin inşası davam edir. Ağsu rayonunda 70 ev sökülüb, 42 mənzil tikilir. İsmayıllı rayonunda isə hazırda 20 ev tikilməkdədir.

Sakinlər üçün tikilən yeni mənzillər əvvəlkinin sahəsinə uyğun inşa edilir. Əgər köhnə evin otaqlarının ümumi sahəsi 90 kvadratmetrə qədər olubsa, yerində ikiotaqlı, 90-dan 130 kvadratmetrə qədərdisə üçotaqlı, 150 kvadratmetrdən çox olubsa dördotaqlı yeni mənzillər tikilir. Hamam kompleksi isə vətəndaşların istəyinə uyğun inşa olunur. Yəni ya mənzilin daxilində, ya da həyətdə tikilir. Yeni mənzillər 9 bal gücündə zəlzələyə davamlı olacaq.

Rayon mərkəzindəki Şəhriyar, Fələki, Təbriz, Salman Mümtaz, Azadlıq və Səttar Bəhlulzadə küçələrində tikilən mənzillərdə son tamamlama işləri görülür. FHN-in əməkdaşları iş başındadırlar. Bəzi küçələrdə isə sökülən evlərin yerində yenisinin bünövrəsi qoyulur. Şahidlik etdiyimiz mənzərə onu deməyə əsas verir ki, burada yeni tikilən evlər qısa zamanda tam hazır olacaq.

Salman Mümtaz küçəsi ev 31-də yaşayan Vahid Şıxıyevin yeni mənzili tikilmək üzrədir. Hələ fevral ayında burada olarkən ev sahibi bizimlə söhbətində bildirmişdi ki, FHN onların mənzilinin tam yararsız olduğunu müəyyənləşdirib və ailələri üçün yeni ev tikiləcək.







İndi Vahid Şıxıyev sevinclidir. Çünki Prezident İlham Əliyev onun ailəsi üçün yeni və tam təmirli mənzil tikdirir. Köhnə evlərinin 1955-ci ildə inşa olunduğunu deyən ev sahibinin sözlərinə görə, dövlət onlara dördotaqlı yeni mənzil hədiyyə edəcək: “Dünyada belə bir təcrübə yoxdur ki, dövlət vətəndaşına ev tikdirsin, özü də tam təmirli. Bunu ancaq Azərbaycan Prezidenti İlham Əliyev edir. Ona görə ki, xalq hər zaman onu dəstəkləyir və dövlət başçısı da xalqa güvənərək böyük işlər görür. Ona görə də biz hər zaman hörmətli Prezidentə minnətdarıq. Allah cənab İlham Əliyevi Azərbaycanın üzərindən əskik etməsin. Ağır gündə, dar gündə hər bir vətəndaşa əl tutan Prezident hər ölkədə olmaz”.

Onu da əlavə edək ki, Prezident İlham Əliyev martın 7-də Şamaxıda zəlzələdən zərər çəkmiş ailələr üçün tikiləcək yeni yaşayış binasının da təməlini qoyub. Rayonun 20 Yanvar küçəsi ilə M.H.Şəhriyar küçəsinin kəsişməsində inşa olunan binada tikinti işləri sürətlə davam edir. Tikintiyə 50-yə yaxın işçi qüvvəsi və xeyli sayda texnika cəlb edilib.

Kamran Əliyevin sözlərinə görə, artıq binanın zirzəmisi və birinci mərtəbəsi hazırdır. Binanın digər hissəsinin isə bünövrəsinin dəmir-konstruksiya işləri görülür. Tezliklə burada da tikintiyə başlanılacaq.

Ümumiyyətlə, burada 44 mənzildən ibarət dördmərtəbəli bina tikiləcək. Digər evlər kimi, bu binada da bütün mənzillər zəruri infrastrukturla təchiz ediləcək. Mənzillərinin ümumi sahəsi 2947.2 kvadratmetr olan binada 4 ədəd birotaqlı, 32 ikiotaqlı və 8 üçotaqlı mənzil olacaq.

Bir ayda iki dəfə zəlzələ bölgəsinə səfər edən dövlət başçısı sakinlərlə görüşlərində bildirmişdi ki, bütün qəzalı evlər sökülərək yerində daha möhtəşəm evlər tikiləcək. Şamaxıda şahidi olduğumuz mənzərə onu deməyə əsas verir ki, təbii fəlakətdən əziyyət çəkən, ağır durumda olan hər bir vətəndaşın problemlərinin həlli dövlətin daim diqqət mərkəzindədir. Tezliklə müvəqqəti sığınacaqlarda qalan ailələr yeni mənzillərinə köçəcəklər.

***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

*Əvvəli 1-ci səh.*

# Əzmkarlığın bəhrəsi

## Zəmilər sünbül bağlayır

Taxılçılıq Cəlilabad rayonunun iqtisadiyyatında həmişə mühüm yer tutmuşdur. İndi də belədir. Keçən ilin payızında 54 min 908 hektara buğda, 4 min 500 hektara arpa və 3 min 200 hektara vələmir əkilmişdir. Bunların hamısı, demək olar ki, dəmyədir, yəni suvarılmayan torpaqlardır. Belədə məhsulun azlığı və ya çoxluğu təbiətdən asılı olur. Qış qarlı, yaz yağmurlu olanda məhsul bol olur. Düzdür, bu qışda Muğan ərazisində qar yağmadı, ancaq yaz uğurlu gəldi. Yağan yağışlar nəticəsində bitkilər sürətlə boy atmağa başladı. Üstəgəl hər bir fermer və torpaq mülkiyyətçisi mart ayında sahələrə bol məhsul üçün əsas şərt olan yemləmə gübrəsi verdi. Bu da, öz növbəsində, bitkilərin inkişafına müsbət təsir göstərmişdir. Mütəxəssislər deyirlər ki, yemləmə aparılmasının məhsuldarlığa çox xeyri olacaq. Hazırda seçmə üsulu ilə alaq otlarına qarşı mübarizə tədbirləri həyata keçirilir - zəmilərə herbisidlər çilənir. Mövcud vəziyyət rayon üzrə məhsulun keçən ildəkindən çox olacağını göstərir.

## Üzümlüklər becərilir

Cəlilabadın torpağı üzümçülük üçün də əlverişlidir. Sovet dövründə burada min tonlarla üzüm yetişdirilirdi. Bu barədə çox deyilib. Lakin keçən əsrin 80-ci illərində keçmiş SSRİ-nin hər yerində olduğu kimi, buradakı üzüm bağları, şərab zavodları da dağıdılaraq məhv edildi. Respublikamız müstəqilliyini bərpa edəndən sonra sahənin inkişaf etdirilməsi üçün müəyyən tədbirlər həyata keçirilməyə başlanıldı. Rayona Fransadan mütəxəssislər gəldilər, ölkələrindəki məşhur üzüm sortlarının burada əkilib-becərilməsinə nəzarət etdilər, sınaqlar keçirdilər. Nəticə gözlənildiyindən qat-qat yaxşı oldu. Münbit torpaq, bol günəş enerjisi, gərgin əmək sayəsində salınan bağlar daha tez - 5 il əvəzinə 3 ilə bara düşdü. Fransız mütəxəssislər bunun öz ölkələrində mümkün olmadığını etiraf etdilər. Beləliklə, rayonda üzümçülüyün keçmiş şöhrətini qaytarmaq üçün tədbirlər həyata keçirildi və bu iş indi də davam etdirilir. Düzdür, üzümçülüyün əvvəlki səviyyəyə çatması üçün hələ çox iş görülməlidir, ancaq o da var ki, üzüm plantasiyaları ildən-ilə artırılır. Hazırda rayonda 1350 hektar üzüm bağı mövcuddur ki, bunun da 70 hektarı təzə salınıb. Keçən il həmin bağlardan 16 min 903 ton üzüm yığılıb. Rayonda texniki sortlarla yanaşı, kişmişi və digər süfrə üzümləri də yetişdirilir. Qarazəncir kəndində yenidən qurulan şərab zavodu müasir avadanlıqlarla təchiz edilib. Bağlardan dərilən üzümün müəyyən hissəsi burada emal olunur. Hazırda üzümlüklər xəstəliklərə qarşı xüsusi texnikalarla dərmanlanır.





## Nübar kartof yığılır

Cəlilabad torpağında, demək olar ki, elə bitki növü yoxdur ki, yetişməsin. Sovetlər zamanında bitkilər planlı şəkildə yuxarıların göstərişi ilə əkilib-becərilərdi. Kartof yalnız Muğan və Maşlıq kəndlərinin həyətyanı sahələrində yetişdirilirdi. Torpaq islahatı həyata keçirildikdən sonra vəziyyət tamam dəyişdi. Hər kəs öz payına düşən və ya icarəyə götürdüyü torpaqda bazar iqtisadiyyatına uyğun olaraq əkin aparmağa başladı. Yeni iqtisadi şəraitdə mülkiyyətçi, fermer daha çox və keyfiyyətli kartof yetişdirmək üçün yüz ölçüb bir biçdi. Keyfiyyətli toxum tapmaq üçün müxtəlif ünvanlara baş çəkdi. Çəkdiyi zəhmət itmədi. Müqabilində yaxşı qazanc əldə etdi. Bu minvalla kartofçuluğa da meyil getdikcə artdı, əkib-becərənlərin sayı çoxaldı. Düzdür, elə il oldu ki, gəlirləri çəkdikləri xərci güclə ödədi. Lakin ruhdan düşmədilər. Nübar kartofu daha tez yetişdirməyin yollarını da aradılar. Polietilen örtüklərdən istifadə etmək qərarına gəldilər. Artıq cəlilabadlılar bu üsulla bir neçə ildir aprel ayının birinci ongünlüyündə kartof yığmağa nail olurlar. Bu il onlar 500 hektarda nübar məhsul yetişdirmişlər. Çıxarılan kartofun bir hissəsi daxili bazarlarda satılır, bir hissəsi Rusiya Federasiyasının müxtəlif şəhərlərinə göndərilir. Fermer alıcı axtarmaq qayğısından azaddır.

Həyətyanı sahələr də daxil olmaqla bu il rayonda 7 min hektara yaxın torpaqda kartof əkilmişdir. Sellofan altında əkilən kartof artıq yığılır. Faraş məhsulun çıxarılmasına isə may ayının 15-20-də başlanacaqdır.

## Çiyələk gəlirli sahədir

9-10 ildir ki, Cəlilabad rayonunda çiyələk də əkilib-becərilir. Əvvəllər az sayda adam onu Göytəpə ərazisindəki torpaqlarda əkib faydasını götürdü. Bunu görüb digər sahibkarlar da çiyələk əkmək həvəsinə düşdülər. Taxıl, eləcə də kartof əkdikləri sahənin məhsulunu götürdükdən sonra payızda torpağın bir hissəsini çiyələk üçün hazırladılar. Bu iş getdikcə genişləndi. Onu əkib-becərənlər mütəxəssislərin rəylərini, təcrübəli sahibkarların fikirlərini öyrəndilər, internetdən faydalandılar. Amerika, Kanada, Türkiyə və digər ölkələrdən ən məhsuldar çiyələk sortlarının şitillərini əldə etdilər. İndi çiyələkçilik rayonda kənd təsərrüfatı məhsullarının yetişdirilməsində aparıcı sahələrdən birinə çevrilib. Keçən il rayon üzrə 420 hektar sahədən 3 min 872 kiloqram məhsul əldə olunmuşdur. Hər hektarın məhsuldarlığı 92,2 sentner təşkil edib. Bu il əkin sahəsi 427 hektardır. Daha tez məhsul yetişdirmək üçün sellofan örtüklərdən istifadə edilir. Bunu sahibkar Vüqar Mehdiyevin çiyələk sahəsində də gördük. Briqadir Fəxrəddin Qarayev dedi ki, 2 hektar çiyələk sahəsinin 40 sotunun üstü sellofanla örtülüb. Bu isə, öz növbəsində, məhsulun açıq havadakına nisbətən təxminən bir ay tez yetişməsinə imkan yaradır.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Rahib Kərimov da söhbət zamanı dedi ki, Cəlilabad torpağı bərəkətlidir. Burada il ərzində torpağı 3 dəfə əkib-becərmək və məhsul əldə etmək olur. Bu il 250 hektarda sarımsaq, 11 hektarda kələm əkilmişdir. 665 hektarda müxtəlif meyvə ağaclarından ibarət bağ, 3 hektarda moruq sahəsi mövcuddur və digər kənd təsərrüfatı məhsulları yetişdirilir. 7 min hektarda isə yazlıq bitkilər üçün şum aparılmışdır. Rayonda bəzi bitkilər əkilmiş, bostan-tərəvəz üçün isə sahələr hazır vəziyyətə gətirilir.

***Seyran CAVADOV,***
***“Azərbaycan”***



# DÜNYA



# Liviya dərin xaosa sürüklənir

## İkihakimiyyətlilik və xarici müdaxilə ölkəni məngənədə sıxır



Səkkiz il əvvəl Liviyada Müəmmər Qəzzafi rejimi devrildikdən sonra Afrikanın vaxtilə ən varlı ölkəsini bürümüş hərc-mərclik səngimir. Milli iqtisadiyyat dərin böhrana qərq olmuş, əhalinin gələcəyə ümidi qalmamışdır. Əsas səbəb Liviyanın faktiki olaraq parçalanması, vahid dövlətin süquta uğramasıdır.

Hazırda Liviyada ikihakimiyyətlilik hökm sürür. Ölkənin şərqində - Tobruq şəhərində seçkilərdə qələbə qazanmış parlament, qərbində - paytaxt Trablisdə isə BMT və Avropa İttifaqının dəstəyi ilə formalaşdırılmış Milli Barışıq Hökuməti (MBH) fəaliyyət göstərir. Üstəlik, paytaxta bir-biri ilə rəqabət aparan beş qruplaşma nəzarət edir. Eyni zamanda Tobruq hökuməti Baş nazir Faiz Sərracın rəhbərlik etdiyi Trablis hökumətinə tabe olmaqdan boyun qaçırır və general Xəlifə Həftərin komandanlıq etdiyi "Liviya milli ordusu" (LMO) adlanan silahlı qruplaşmaya arxalanır.

Hər iki hakimiyyətin nümayəndələrini bir araya gətirib vahid hökumət yaratmaq mümkün olmur. BMT yaxın vaxtlarda ölkədə ümumxalq seçkiləri keçirib legitim hakimiyyət orqanları formalaşdırmağı təklif edir. Lakin Tobruq bu təşəbbüsü qəbul etmir və cərəyan edən hadisələr göstərir ki, onun məqsədi öz hakimiyyətini ölkənin hər yerində bərqərar etməkdir. Məhz bu məqsədi reallaşdırmaq üçün general Həftərin əmri ilə LMO cari ayın 4-də Trablisi ələ keçirmək üçün əməliyyata başlamışdır. General əməliyyatın məqsədi kimi ölkəni terrorçulardan təmizləməyi göstərir. O, BMT-nin Baş katibi Antoniu Quterrişin tərəflər arasında dialoq qurmaq təşəbbüsünü rədd etmişdir. Həftər bəyan etmişdir ki, Trablisdəki terrorçular tamamilə məhv edilməyənədək paytaxt uğrunda döyüşlər davam edəcək.

Şəhər üzərinə hücum ilk günlər LMO-nun üstünlüyü şəraitində keçirdi. Hücum edənlər şəhərə yaxınlaşıb hətta onu raket atəşinə tuta bilmişdilər. Lakin bir müddət sonra MBH-nin sərəncamında olan silahlı birləşmələr əks həmlələrlə LMO-nun irəliləməsini dayandıra bilmişlər.

Ölkədə kövrək sabitliyi bərpa etmək üçün BMT-nin səyləri nəticəsiz qalmışdır. Xarici dövlətlərin müdaxiləsi, onların bir-birinə qarşı duran tərəfləri dəstəkləməsi vəziyyəti daha da mürəkkəbləşdirir. General Həftəri dəstəkləyən xarici qüvvələr daha çoxdur. İndi LMO-nun başçısı hərbçidən daha çox siyasi lider kimi özünü göstərir. Dünyanın aparıcı dövlətləri Həftərlə müntəzəm olaraq təmasa keçib ona dəstəyini nümayiş etdirir. General xarici ölkələrə səfərə də çıxmışdır. O, dəfələrlə Moskvada olmuş, Rusiyanın müdafiə və xarici işlər nazirləri, həmçinin Təhlükəsizlik Şurasının katibi ilə görüşmüşdür. Bəzi məlumatlara görə, Moskva LMO-ya tank, top, pilotsuz uçuş aparatları və döyüş sursatı göndərir.

ABŞ da Həftərə dəstək verməkdən çəkinmir. Prezident Donald Tramp aprelin 15-də Həftərlə telefon danışığı apararaq onun terrorizmlə mübarizədə göstərdiyi səyləri müzakirə etmişdir. Həmçinin Liviyanın neft ehtiyatlarının təhlükəsizliyinin təmin olunmasında generalın rolu və ölkənin sabit, demokratik siyasi sistemə keçidi barədə söhbət getmişdir.

Fransa, habelə Misir və BƏƏ də Həftərə isti münasibət bəsləyir. İtaliya və Böyük Britaniya isə Faiz Sərrac hökumətini dəstəkləyir. Bu səbəbdən aparıcı dövlətlərin Liviya böhranının nizamlanmasına münasibətdə ortaq məxrəcə gəlməsi çətinləşir.

Söhbət, aparıcı dövlətlərin iddia etdiyi kimi, ölkədə sabitliyin bərpa edilməsindən, vahid legitim hakimiyyətin yaradılmasından getmir. Hadisələrin gedişi göstərir ki, Liviyada vəziyyətə müdaxilə edən hər bir xarici dövlət münaqişədən yalnız öz mənafeyi naminə istifadə etmək istəyir. Onların general Həftəri dəstəkləməsi də təsadüfi deyil. Belə ki, LMO həqiqətən Liviyanın şərqini İŞİD və "əl-Qaidə" ilə əlaqəli terrorçu qruplaşmalardan təmizləmiş, ən əsası isə ölkənin neft ehtiyatlarına nəzarəti ələ keçirmişdir. Ona görə də Həftər MBH ilə müqayisədə üstün mövqeyə çıxmışdır. Üstəlik, generalın xarici himayədarlarının sayı artır. Odur ki, Trablis hökumətinin gələcəkdə LMO qarşısında duruş gətirəcəyini təsəvvür etmək çətin görünür.

Amma belə bir məqamı da diqqətdən kənarda saxlamaq olmaz ki, LMO-nun mübarizədən qalib cıxması ölkədə sabitliyin bərqərar olmasına zəmanət vermir, əksinə, qarşıdurmanın güclənməsinə zəmin yaradır, çünki dayanıqlı sabitlik yalnız tərəflər arasında qarşılıqlı anlaşmadan keçir. Həftərin qələbəsi sabitliyə yox, yalnız dərin xaosa yol aça bilər. Hələliksə gərgin vəziyyət davam edir, Trablis əhalisi güllə altında yaşamaq məcburiyyətində qalır, yüzlərlə sakin ev-eşiyini tərk etməli olur.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

## İraqdan Türkiyəyə dörd PKK terrorçusu gətirildi

İraqın şimal-qərbində yerləşən Sincar rayonunda türk kəşfiyyatçıları tərəfindən keçirilmiş əməliyyat zamanı tutulan dörd PKK terrorçusu Türkiyəyə gətirilmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.



Məlumata görə, Milli İstixbarat Təşkilatının (MİT) əməkdaşları 34, 21, 20 və 16 yaşlı terrorçuları Daxili İşlər Nazirliyinin Terrorizmlə Mübarizə Departamentinin əməkdaşlarına təhvil vermişlər. Cinayətkarların PKK-nın Suriyadakı qanadının - PYD/YPG-nin düşərgələrində təlim keçdiyi bildirilir. Bundan sonra onlar Sincara yollanmışlar. Terrorçulardan biri 2010-cu ildə İraqın şimalında yerləşən Qara və Həftənin rayonlarında Türkiyə ordusu ilə döyüşlərdə fəal iştirak etmişdir.

## Gürcüstanda etirazlar zamanı 55 nəfər zərər çəkdi

Gürcüstanda Alazan çayı üzərində su elektrik stansiyasının inşasına qarşı etiraz aksiyasının iştirakçıları ilə polis arasında toqquşma zamanı yaralananların sayı 55 nəfərə çatmışdır. Bu barədə Daxili İşlər Nazirliyi məlumat vermişdir.



Yaralılardan 38-i polis əməkdaşı, 17-si mülki şəxslərdir. 20 nəfərdən çox polis əməkdaşı Telavi şəhər xəstəxanasına çatdırılmışdır.

Xatırladaq ki, Pankisi dərəsinin yüzlərlə sakini "Xadori-3" su elektrik stansiyasının inşasının başlanmasına mane olmaq üçün Axmeti rayonunun Birkiani kəndində etiraz nümayişinə toplaşmışdılar. Xüsusi təyinatlılarla aksiya iştirakçıları arasında toqquşma baş vermişdir.

Daxili işlər naziri Georgi Qaxariya Pankisi dərəsində etirazçılarla görüşdükdən sonra xüsusi təyinatlılar rayondan çıxarılmışdır.

Birkiani sakinləri hesab edirlər ki, stansiyanın tikintisi regionun ekologiyasına ziyan vuracaq.

## Şimali Makedoniyanın Prezidenti ikinci turda seçiləcək



Adı dəyişdirildikdən sonra Şimali Makedoniyada ilk dəfə prezident seçkiləri keçirilir. Birinci turda minimal üstünlüklə hakim partiyanın namizədi Stevo Pendarovski qalib gəlir. Onunla birlikdə müxalifətin namizədi Qordana Silyanovska ikinci tura keçir. Bu barədə "Euronews" telekanalı xəbər verir.

"İkinci turda asan olacaq, çünki mənimlə Qordana Silyanovska arasında fərq böyükdür. Hesab edirəm ki, seçicilər bizim "Birgə irəli" şüarımız altında proqramımızı dəstəkləyəcəklər. Axı biz anlayırıq ki, ölkə keçmişə qayıda bilməz. Bu, blokadaya və böhrana gətirib çıxarar" deyə Pendarovski birinci turun nəticələri elan olunduqdan sonra bildirmişdir.

Silyanovska isə hesab edir ki, "ikinci turda iqtisadiyyat, məşğulluq, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasının təmin edilməsi prioritet məsələlər olacaq. Lakin ölkədə hüququn aliliyi olmadan iqtisadiyyat inkişaf edə bilməz".

Analitiklər qeyd edirlər ki, birinci turda seçicilər namizədlərin proqramlarının ayrı-ayrı bəndlərinə deyil, daha çox onların ölkənin yeni adı ilə bağlı mübahisədəki mövqeyinə diqqət yetirmişlər. Pendarovski NATO və Aİ-yə daxil olmaq üçün Prespa sazişinə uyğun olaraq ölkənin adının dəyişdirilməsi təşəbbüsünü dəstəkləmişdir. Silyanovska isə Makedoniyadan danışarkən bilərəkdən "Şimali" sözünü işlətməmiş, Skopye ilə Afina arasındakı sazişi isə alçaldıcı hesab etmişdir.

Prezident seçkilərinin ikinci turu mayın 5-də keçiriləcək.

# Pasxa qana boyandı

## Şri-Lankada törədilmiş terror aktları dünyanı şoka saldı



Şri-Lankanın katolik kilsələrində və bir neçə hotelində baş vermiş səkkiz partlayış nəticəsində 290 nəfər həlak olmuş, 500 nəfərə yaxın adam yaralanmışdır. Ölənlər arasında azı 35 əcnəbi, o cümlədən Böyük Britaniya, Yaponiya, Türkiyə, ABŞ, Niderland, Çin və Portuqaliya vətəndaşları da var. Polis partlayışların təşkilində şübhəli bilinən 24 nəfəri saxlamışdır.

Terror aktları srağagün katoliklərin Pasxa günündə törədilmişdir. Əvvəlcə üç hoteldə və iki kilsədə partlayışlar barədə məlumat daxil olmuşdur. Ən çox qurban paytaxt Kolomboda qeydə alınmışdır. Şəhərdə beşulduzlu "Shangri-La", "Cinnamon Grand" və "Kingsbury" hotelləri və bir kilsə hücuma məruz qalmışdır. Battikaloa və Neqombo şəhərlərindəki kilsələrdə onlarca adam həlak olmuşdur. Yeddinci partlayış Kolombonun yaxınlığındakı Dehilava-Maunt-Laviniya şəhərindəki mehmanxanada, səkkizinci isə Dematoqoda şəhərindəki yaşayış kompleksində baş vermişdir. Daha bir partlayıcı qurğu Şri-Lankanın əsas beynəlxalq hava limanının - "Bandaranaike"nin yaxınlığında tapılmışdır.

Bundan sonra hakimiyyət orqanları aeroportda təhlükəsizlik tədbirlərini gücləndirmişdir. Ölkədə komendant saatı elan edilmiş, müvəqqəti olaraq sosial şəbəkələr və mesencerlər, o cümlədən WhatsApp, Viber və Facebook bağlanmışdır.

Partlayışlara görə məsuliyyəti yerli "Milli tövhid camaatı" radikal islamçı qruplaşması üzərinə götürmüşdür. Ölkənin müdafiə naziri Ruvan Viyevardene bildirmişdir ki, yaxın vaxtlarda bütün günahkarlar həbs olunacaq. O əlavə etmişdir ki, cinayətkarların şəxsiyyəti artıq müəyyənləşdirilmişdir.

Yerli KİV xəbər verir ki, paytaxtdakı "Cinnamon Grand" hotelində "İsveç masası"na növbədə özünü partlatmış terrorçu həmin mehmanxanada Məhəmməd Əzzam Məhəmməd kimi qeydiyyata düşmüşdür.

"Frans Press" agentliyinin xəbərinə görə, partlayışlardan bir neçə gün əvvəl Şri-Lanka polisinin başçısı xarici kəşfiyyata istinadən "Milli tövhid camaatı"nın Pasxa günü iri katolik kilsələrə mümkün hücumu barədə hüquq mühafizə orqanlarını xəbərdar etmişdir. Bu qruplaşma ötən il Şri-Lankada budda heykəllərini dağıdaraq bir neçə vandalizm aktı törətmişdir.

Bundan əvvəl hökumət İŞİD ekstremistlərinin Suriyada darmadağın edildikdən sonra adaya qayıtması ilə əlaqədar təhlükədən danışırdı. Məsələn, bu ilin yanvarında kəndlərin birində təlim düşərgəsi aşkar olunmuşdur. Düşərgədə İŞİD-in üzvləri terror aktlarına hazırlaşır, Anuradhapura şəhərində qədim budda abidələrini partlatmağı planlaşdırırdılar.

2012-ci il siyahıyaalınmasına görə, Şri-Lanka əhalisinin 70 faizini buddaçılar, 12,6 faizini hindular, 9,7 faizini müsəlmanlar, 7,6 faizini xristianlar təşkil edir. Yerli NCEASL xristian qeyri-hökumət təşkilatının məlumatına görə, keçən il xristianların sıxışdırılması ilə bağlı 86 hadisə qeydə alınmışdır. Cari ilin əvvəllərindən isə daha 26 hal baş vermişdir. Eyni zamanda ekspertlər belə bir məqama diqqət yetirirlər ki, məhz xristianlar ölkədə sosial inteqrasiya rolunu oynayırlar: katoliklər həm sinqallar (əhalinin 74,8 faizi), həm də tamillər (11,2 faiz) arasında var.

Şri-Lankada hökumət qüvvələri ilə "Tamil İlama azadlığı pələngləri" hərəkatı arasında vətəndaş müharibəsi 26 il davam etmiş və 2009-cu ildə bitmişdir.

## Əfqanıstanda kömür şaxtasında səkkiz fəhlə boğuldu

Əfqanıstanın şimalında, Samanqan əyalətində yerləşən kömür şaxtasında səkkiz nəfər həlak olmuşdur. Fəhlələr boğulmuşlar. Bu barədə "Sinxua" agentliyi xəbər verir.



Yerli KİV-in xəbərinə görə, şaxtaçılar Dara-i-Sufi Bala kömür mədənində işləyərkən oraya zəhərli qaz sızmışdır. Fəhlələri xilas etmək mümkün olmamışdır.

## Səudiyyə Ərəbistanında tədqiqat mərkəzinə hücumun qarşısı alındı

Səudiyyə Ərəbistanının təhlükəsizlik qüvvələri paytaxt ər-Riyaddan 260 kilometr şimalda yerləşən Zülfi qəsəbəsindəki tədqiqat mərkəzinə hücumun qarşısını almışdır. Cinayətkar qrupun üzvləri məhv edilmişdir. Bu barədə "əl-Ərəbiyyə" telekanalı xəbər verir.



Məlumata görə, mərkəzin inzibati kompleksinə soxulmağa cəhd edən dörd terrorçu öldürülmüşdür.

Krallığın ərazisində fəaliyyət göstərən qruplaşmalardan heç biri hələ ki bu hücuma görə məsuliyyəti üzərinə götürməmişdir.

## "Sarı jiletlər"in 23-cü nümayişi

Fransada "sarı jiletlər" "Biz sağ qalmaq yox, yaşamaq istəyirik" şüarı altında yeni nümayiş keçirmişlər. Bu barədə "Euronews" telekanalı xəbər verir.

Əsas aksiyalar ötən həftənin əvvəllərində Notr-Damda baş vermiş yanğından sarsılan Parisdə keçirilmişdir. "Frans Press" agentliyinin xəbərinə görə, minlərlə adamın iştirakı ilə yürüş paytaxtın cənub-şərqində, Bersi rayonunda start götürmüşdür.

Respublika meydanının girişində polis nümayişçilərə qarşı gözyaşardıcı qazdan və travmatik qumbaraatanlardan istifadə etmişdir. Rəsmi məlumata əsasən, 220 nəfərdən çox nümayişçi saxlanmışdır.

Ümumilikdə ölkədə etiraz aksiyalarında 28 min nəfər, Parisdə 9 min nəfərə yaxın adam iştirak etmişdir.



# Ukraynanın yeni Prezidenti

## Zelenski təbrikləri qəbul edir



Srağagün Ukraynada prezident seçkilərinin ikinci turu keçirilmişdir. Mərkəzi seçki komissiyası seçkilərin baş tutduğunu bildirmişdir. 199 seçki dairəsindən 198-nin protokolları işləndikdən sonra seçkilərdə səsvermə hüququ olan əhalinin 62,06 faizinin iştirak etdiyi məlum olmuşdur.

Bütün "exit-poll"arın nəticələrinə əsasən, prezident seçkilərinin ikinci turunda "Xalqın xidmətçisi" partiyasının namizədi Vladimir Zelenski təxminən 73 faiz səs toplayaraq qələbə qazanmışdır. Onun rəqibinə - hazırkı dövlət başçısı Pyotr Poroşenkoya seçicilərin 25,5 faizi səs vermişdir. Zelenskiyə ən çox dəstəyi Ukraynanın şərqi təmin etmişdir (87,3 faiz). Poroşenkoya isə ölkənin qərbi daha fəal səs vermişdir (41,3 faiz).

Poroşenko artıq məğlubiyyətini etiraf etmiş və Zelenskini qələbə münasibətilə təbrik etmiş, zərurət yaranacağı təqdirdə ona öz köməyini və məsləhətlərini təklif etmişdir. Cavabında Zelenski bunu istisna etməmiş, hətta Poroşenkonu nazir vəzifəsinə dəvət etməyə hazır olduğunu bildirmişdir.

Artıq dövlət başçıları seçkilərdə qalib gəlmiş Zelenskini təbrik edirlər. Avropa İttifaqı Şurasının sədri Donald Tusk səsvermə gününü "Ukrayna üçün həlledici gün" adlandırmışdır. O, hətta Ukrayna üçün siyasi düstur tərtib etmişdir: "Azad seçkilər və hakimiyyətin dinc yolla əvəzlənməsi = güclü Ukrayna demokratiyası".

NATO-nun Baş katibi Yens Stoltenberq qeyd etmişdir ki, Kiyev "NATO-nun vacib tərəfdaşıdır" və alyans "əməkdaşlığın davamını səbirsizliklə gözləyir".

ABŞ Prezidenti Donald Tramp Zelenskiyə zəng edərək onu qələbə, Ukrayna xalqını isə dinc və demokratik seçkilər münasibətilə təbrik etmişdir.

Seçkilərin ilkin nəticələrinə Rusiya Xarici İşlər Nazirliyi də reaksiya vermişdir. Nazirliyin rəsmi nümayəndəsi Mariya Zaxarovanın dediyinə görə, Moskva inanır ki, yeni Prezidentin dövründə Ukrayna Rusiya ilə qarşılıqlı münasibətlərə yenidən baxacaq.

Bu arada Ukraynanın yeni Prezidentinin seçki qərargahında onun dövlət başçısı vəzifəsində prioritetlərindən söhbət gedir. Qərargahda dövlət təsisatlarının formalaşdırılmasına və ideologiyaya cavabdeh olan Ruslan Stefançuk bildirmişdir ki, Zelenski əsas diqqəti Moskva ilə münasibətlərə yönəltməyi planlaşdırır.

Bir müddət əvvəl Zelenski "bir nömrəli vəzifə" kimi Rusiyada həbs olunmuş dənizçilərin ölkəyə qaytarılmasını müəyyənləşdirmişdi. O həmçinin Donbasda münaqişənin dayandırılmasına istiqamətlənmiş "yeni informasiya müharibəsi"nə başlamağı vəd etmişdi.

Cari ayın əvvəllərində Zelenski Donbas münaqişəsinə son qoymaq üçün Rusiya Prezidenti Vladimir Putinlə danışıqlara hazır olduğunu bildirirdi. Onun dediyinə görə, nəticəyə nail olmaq üçün Minsk formatı dəyişdirilməli və Moskva danışıqlara cəlb olunmalıdır. Eyni zamanda o vurğulayırdı ki, ərazi güzəştinə getməyəcək və Ukraynanın bütövlüyünü müdafiə edəcək.

Zelenskinin Donbasda müharibəni dayandırmaq üçün öz planı da var. Plan bir neçə mərhələdən ibarətdir. İlk mərhələ atəşkəsin elan olunması, habelə Ukrayna hökumətinin region sakinlərinə sosial ödənişləri bərpa etməsidir.

İsmayıl Şıxlı-100

# Xalq yazıçısının xatirəsinə ehtiram

Xalq yazıçısı İsmayıl Şıxlının 100 illik yubileyinin respublika səviyyəsində keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin 28 yanvar 2019-cu il tarixli sərəncamı ədibin vətənində, Qazaxda böyük razılıqla qarşılanmışdır. İndi hər bir qazaxlı dövlət başçısının bu sərəncamını görkəmli şəxsiyyətlərə verdiyi dəyər kimi qiymətləndirirlər.





Hazırda sərəncama uyğun olaraq xalq yazıçısının vətənində yüksək səviyyəli hazırlıq işləri gedir. Yubileylə bağlı rayon icra hakimiyyətində tədbirlər planı təsdiq edilmiş, sərəncama uyğun olaraq rayonun sayılıb-seçilən ziyalılarından ibarət işçi qrupu yaradılmışdır. Bundan başqa bir neçə dəfə rayon ziyalılarının, ağsaqqalların, xalq yazıçısının yaxınlarının iştirakı ilə geniş tərkibdə toplantı keçirilmişdir.

Bu günlərdə keçirilən toplantıda qərara alınmışdır ki, ömrü boyu Azərbaycan təbiətinin vurğunu olan və əsərlərində onu sevə-sevə vəsf edən yazıçının 100 illik yubileyi ilə əlaqədar rayonda meyvə bağı salınsın.

İkinci Şıxlı kəndində "Ağalıq düzü" adlanan və xalq yazıçısının babalarının yurd yeri olan ərazidə alma və ərik ağacları əkilmişdir. Həmin gün kənddə böyük izdiham yaşanmışdır. Rayonun idarə və təşkilat nümayəndələrinin, ali və orta ixtisas məktəblərinin, ümumtəhsil müəssisələrinin, ağsaqqalların və ziyalıların iştirak etdikləri tədbirdə Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək görkəmli yazıçının 100 illik yubileyinin qeyd olunması ilə bağlı ölkə rəhbərinin imzaladığı sərəncamın əhəmiyyətindən danışmış, Azərbaycanın görkəmli yazıçılarına və ziyalılarına verdiyi dəyərə görə qazaxlılar adından Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir. Qeyd etmişdir ki, dövlət başçısı keçən il Azərbaycan təhsilində müstəsna xidmətləri olan Qazax Müəllimlər Seminariyasının, bu ilin yanvar ayında isə xalq yazıçısı İsmayıl Şıxlının 100 illik yubileylərinin respublika səviyyəsində keçirilməsi üçün sərəncam imzalaması elmə, təhsilə, ədəbiyyata verilən dəyərlə yanaşı, həm də qazaxlı ziyalılara olan böyük hörmətin və ehtiramın yüksək göstəricisidir.

R.Babaşov diqqətə çatdırmışdır ki, İsmayıl Şıxlı yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik obrazlar yaratmaqla Azərbaycan xalqının bədii fikir salnaməsinə yeni parlaq səhifələr yazmışdır. Ədibin məşhur "Dəli Kür" romanı ictimai şüurda dönüşə və özünüdərkə yol açan mühüm ədəbi-mədəni hadisə kimi qiymətləndirilmişdir. Yazıçının klassik irsin ənənələrini davam etdirməsi və folklor xəzinəsindən bəhrələnməklə meydana gətirdiyi əsərlərdə dərin həyat fəlsəfəsi öz dolğun ifadəsini tapmışdır. Üslubun mukəmməlliyi, bədii dilin obrazlılığı, daxili aləmin təsvirinin genişliyi və əlvanlığı İsmayıl Şıxlı nəsrinə xas olan səciyyəvi cəhətlərdəndir. Taleyüklü məsələlərə münasibətdə daim vətəndaş, ziyalı mövqeyi nümayiş etdirmiş İsmayıl Şıxlının fəaliyyəti bütövlükdə azərbaycançılıq məfkurəsinə sədaqətin və ənənəvi dəyərlərə ehtiramın bariz nümunəsidir.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal çıxış edərək Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, nasir, tanınmış ədəbiyyatşünas, pedaqoq və ictimai xadim İsmayıl Şıxlı şəxsiyyəti haqqında ürək sözlərini söyləmiş, yazıçının 100 illik yubileyinin keçirilməsi ilə bağlı dövlət başçısının imzaladığı sərəncamı yüksək dəyərləndirmişdir.

Yazıçının doğulub boya-başa çatdığı Birinci Şıxlı kənd orta məktəbi şagirdlərinin göstərdikləri ədəbi-bədii kompozisiyadan sonra meyvə bağında ağac tinglərinin əkilməsinə başlanmışdır. Bağın salınması başa çatdıqdan sonra iştirakçılar xatirə şəkli çəkdirmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Baharın da qarı olarmış

Bahar gözəlliyinə görə digər fəsillərdən fərqlənir. Səmada süzən quşlardan tutmuş yaşıllığa çevrilən boz çöllər təbiətin insanlara ən böyük töhfəsidir.



Beləcə yaz başlayandan sanki göylər yerə öz nurunu səpməyə tələsir. Bütün qış boyu quraqlıqdan torpaq da bezmişdi. Böyüklərdən tutmuş uşaqlara qədər ötən qışın qarsızlığına təəssüflənərək fəsli başa vurduq. İstiləşən hava boz ay boyunca bir-birinin ardınca çərşənbələri qova-qova Baharın pişvazına çıxdı. Torpağın köksündə Od qalanmış, Yel Suyu axmağa başlamışdı. Hətta martın ortalarında havanın tempraturu 20 dərəcəyə qədər yüksəldi. Təpədən-dırnağadək hər şey dəyişdi. Axar sular aşıb-daşdı, yamaclar yaşıllaşdı, gecələr qısalıb ömrünü gündüzə bağışladı.

İnsanlar iqlim dəyişikliyinə artıq alışıb. Yenə də təbiət bizi təəccübləndirdi. Aprelin ikinci ongünlüyündə Qubanı ağ örpəyə bürüdü. Yaşıl səməniyə bənzəyən torpağa qar necə də yaraşırmış. Zirvədə topalanan qar sanki, - "mənsiz yaz olmaz!" deyir. Sübh günəşinin şəfəqlərinin çarpaz şöləlendiyi qarlı zirvə öz ruzi-bərəkətini dörd bir yana yaymaqdadır.

Amma bu qarın insanlara gətirdiyi sevincin əksi təbiətə vurduğu zərərdi. Çərdəkli meyvələrin çiçəkləndiyi bir zamanda yağan qar onların barını əlindən aldı. Gilas, albalı, şaftalı, ərik kimi meyvələrə bu zaman yağan qarın vurduğu zərər onu yetişdirən insanlara təəssüf hissi yaşatdı. Demək, bu il həmin meyvələr qıt olacaq. Arılara da bu qarın yağmağı yaxşı təsir göstərmir. Amma bəzi təsərrüfat adamlarına düşərli oldu. Taxıl zəmilərinə yağan qar bu sahəyə can verdi. Göy zəmilərdə bərəkəti artıran qar sahibkarların sevincinə səbəb oldu.

Amma nə etmək olar, Allahın işinə kim qarışa bilib ki. Xoşbəxt anları yaşayan Bahar isə kainatın Azərbaycan dünyasında dolaşmaqdadır. Nə qədər qar yağsa da, temperatur aşağı düşsə də, unutmayaq ki, qışın ömrü bitib. Uşaqların "kaş qışda yağaydı bu qar" təəssüfü isə qaldı gələn ilə. Qarşıda isə bərəkətli günlər gəlir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Dəftərxana və təsərrüfat mallarının satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir:**

**LOT 1** - Dəftərxana və təsərrüfat mallarının alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (əlaqələndirici şəxs: Bəşirova Reyhanə (012) 596-32-73) ünvanından ala bilərlər.

**LOT 1 - 300 AZN**
**Satınalan təşkilat: Dövlət Məşğulluq Xidməti**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir Hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**
**Büdcə gəlirlərinin təsnifat kodu: 142340**
**Büdcə səviyyəsinin kodu: 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər (---).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **27 may 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **7 iyun 2019-cu il saat 18:00-a** qədər Bakı şəhəri, S.Əsgərova, 85 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **10 iyun 2019-cu il saat 15:00-a** Bakı şəhəri, S.Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetində 15.01.2019-cu il tarixdə elan edilmiş PKSV naqilinin (2x0.5) satın alınması üzrə açıq tender prosedurunun qalibi "BAKİNİTY" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "BAKİNİTY" MMC arasında 50 806,08 (əlli min səkkiz yüz altı manat, 08 qəpik) manat dəyərində 09 aprel 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetində 15.01.2019-cu il tarixdə elan edilmiş yüklərin daşınması üçün çəngəlli dizel yükləyici, elektrik çəngəlli yükləyici (ştabler), transpalet və taxta paletlərin satın alınması üzrə açıq tender prosedurunun qalibi "UDT-Texnika" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "UDT-Texnika" MMC arasında 48 942,86 (qırx səkkiz min doqquz yüz qırx iki manat, 86 qəpik) manat dəyərində 09 aprel 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetində 15.01.2019-cu il tarixdə elan edilmiş ofis və dəftərxana ləvazimatlarının satın alınması üzrə açıq tender prosedurunun qalibi "İnci Group of Companies" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "İnci Group of Companies" MMC arasında 68 611,38 (altmış səkkiz min altı yüz on bir manat 38 qəpik) manat dəyərində 09 aprel 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetində 25.01.2019-cu il tarixdə elan edilmiş ONT (1xPOTS, 4xEthernet) modem və SC UPC Fast konnektorların satın alınması üzrə açıq tender prosedurunun qalibi "Muğan Ticarət Təchizat" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "Muğan Ticarət Təchizat" MMC arasında 208 824,60 (iki yüz səkkiz min səkkiz yüz iyirmi dörd manat 60 qəpik) manat dəyərində 22 aprel 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası İnformasiya Texnologiyaları üzrə avadanlıqların satın alınmasına dair

### *açıq tender elan edir*

Dövlət satınalmalarını tənzimləyən normativ hüquqi sənədlərdə göstərilən hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi dövlət mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan Respublikasında keçirilən dövlət satınalma prosedurlarında iddiaçı kimi iştirak edə bilərlər.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və reyestrdən çıxarış) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında - tender təklifinin qüvvədə olma müddətindən ən azı 30 bank günü çox qüvvədə olmalıdır);*
- *son bir ili əhatə edən maliyyə dövriyyəsini əks etdirən bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi və digər müvafiq orqanlarından arayış;*
- *digər sənədlər.*

Tender proseduru **11 iyun 2019-cu il saat 16:00-da** Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasında (Bakı şəhəri, Bülbül prospekti, 27) keçiriləcəkdir.

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını **10 iyun 2019-cu il saat 18:00-a** qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci **29 may 2019-cu il saat 18:00-a** qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Bakı şəhəri, Bülbül prospekti, 27 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İştirak haqqı **500** manat təşkil edir və tenderin nəticələrindən asılı olmayaraq geri qaytarılmır. Tenderdə iştirak haqqı Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının aşağıdakı hesabına köçürülməlidir:

**Bank: ASC "Xalq" Bankının "Sahil" filialı**
**Bank VÖEN: 2000296061**
**Müxbir hesab: AZ24NABZ01350100000000067944**
**Kod: 510675**
**SWIFT: HAJCAZ 22**
**İBAN: AZ92 HAJC NCRA ZN00 9000 7131 0001**
**VÖEN: 1403372311**

Malgöndərənlər (podratçılar) ixtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədlərində və tenderin əsas şərtlər toplusunda şərh edilmiş ixtisas meyarlarına və prosedurlarına əsasən qiymətləndiriləcəkdir.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

Tenderdə iştirak etmək istəyən şirkətlər iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Bakı şəhəri, Bülbül prospekti, 27 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər. Tender üzrə əlaqələndirici şəxs: Maliyyə və satınalmalar idarəsinin aparıcı mütəxəssisi Rüstəm Kərimov (rustam.karimov@fimsa.az, tel.: +99412 493-50-58, daxili 285; faks: 498-12-14).

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Dövlət Radiotezliklər İdarəsi yeni katriclərin alınması və dolumu, printerlərə texniki xidmətin satın alınması məqsədilə

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir.**

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Dövlət Radiotezliklər İdarəsinin Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə, 6-cı mərtəbə (əlaqələndirici şəxs: Qaryağdı Nağıyev, əlaqə telefonu: +99412-598-21-37) ünvanından ala bilərlər.

**İştirak haqqı: 700 (yeddi yüz) manat.**

**H/H: AZ78AZPO91015461200420100072**
**Bankın adı: "Azərpoçt" MMC PF1**
**Bankın VÖEN-i: 9900037711**
**Bankın kodu: 691011**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin qiymətinin 1 faizi həcmində bank təminatı (zərfin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilmə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Sosial Müdafiə Fonduna borcun olub-olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulan digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 16 may 2019-cu il saat 17:00-a kimi, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 30 may 2019-cu il saat 17:00-a kimi Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə, 6-cı mərtəbə, Dövlət Radiotezliklər İdarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 31 may 2019-cu il saat 11:00-da Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası 2019-cu il üçün *tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir:**
LOT - 1 Beynəlxalq tədbirlərin keçirilməsi işlərinin satın alınması.
Tenderdə iştirak etmək üçün iddiaçılar bir LOT üzrə 150 manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Səbail rayonu, Xəqani küçəsi, 57 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs: Nəsrullayeva Rübabə Sultəli qızı. Əlaqə telefonu: 493-51-24

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**

**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**KODU: 210005**
**Büdcə səviyyə kodu: 3**
**Büdcə təsnifatın kodu: 142314**
**M/HESAB: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**AXUNDOV ADINA MİLLİ KİTABXANA**
**VÖEN: 1700241041**
**HESAB: AZ27CTRE00000000000005468301**

İştirak haqqı heç bir halda geri qaytarılmır.
Tender iştirakçılarına təklif edilir ki, tender təkliflərini "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.
Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: yüksək keyfiyyət, aşağı qiymət, analoji işlərdə təcrübə, müqavilənin vaxtında icrası, maliyyə vəziyyəti.
Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat;*
- *tender təklifinin təminatı (zərflərin açıldığı gündən 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində bank zəmanəti (zərflərin açıldığı gündən 60 bank günü qüvvədə olmalıdır).*

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 16 may 2019-cu il saat 17:00-dək təqdim etməlidirlər.
Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.
İddiaçılar 2 nüsxədə (əsli və surəti) tərtib olunmuş tender təklifi və bank zəmanətini 24 may 2019-cu il saat 17:00-dək ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə təqdim etməlidirlər.
Tender zərfləri 27 may 2019-cu il saat 12:00-da açılacaqdır.
İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi *açıq tenderə dəvət edir*

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi dövlət müəssisələrinin bazasında yaradılacaq səhmdar cəmiyyətlərin nizamnamə kapitalının müəyyən edilməsi, respublikanın müxtəlif rayon və şəhərlərində yerləşən kiçik dövlət müəssisə və obyektlərinin, habelə özəlləşdirilməsi və ya icarəyə verilməsi nəzərdə tutulan dövlət mülkiyyətində olan torpaq sahələrinin qiymətləndirilməsi prosesinə məsləhətçilərin (qiymətləndiricilərin) cəlb edilməsi üzrə açıq tender elan edir.
Tender 4 LOT üzrə keçirilir:
LOT 1 - Dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılacaq səhmdar cəmiyyətlərin nizamnamə kapitalının müəyyən edilməsi;
LOT 2 - Respublikanın müxtəlif rayon və şəhərlərində (Bakı şəhəri istisna olmaqla) yerləşən kiçik dövlət müəssisə və obyektlərinin bazar dəyərinin müəyyən edilməsi;
LOT 3 - Bakı şəhərində yerləşən dövlət mülkiyyətində olan torpaq sahələrinin bazar dəyərinin müəyyən edilməsi;
LOT 4 - Respublikanın müxtəlif rayon və şəhərlərində yerləşən (Bakı şəhəri istisna olmaqla) dövlət mülkiyyətində olan torpaq sahələrinin bazar dəyərinin müəyyən edilməsi.
Tenderdə daşınmaz əmlakın qiymətləndirilməsi sahəsində ixtisaslaşan peşəkar rezident və qeyri-rezident hüquqi şəxslər, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsium da daxil olmaqla) iştirak edə bilərlər.
Hər bir LOT üçün iştirak haqqı 500 (beş yüz) manat müəyyən edilmişdir. Tenderin hər hansı LOT-unda iştirak etmək istəyənlər həmin LOT üçün 500 (beş yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürdükdən sonra tenderin həmin LOT-unun əsas şərtlər toplusunu Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (Əmlak Məsələləri Dövlət Komitəsi, otaq № 812, tel.: +99412 490-24-08, əlavə 357; faks: +99412 490-33-59) ünvanından ala bilərlər.

**Emitent**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**Bank kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**SWIFT: BIK: CTREAZ22**
**Alan**
**Əmlak Məsələləri Dövlət Komitəsi**
**VÖEN: 2000015631**
**H/H: AZ84CTRE00000000000002647970**
**Büdcə səviyyəsinin kodu: 7**
**Büdcə təsnifatının kodu: 142340**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderin bir və ya bir neçə LOT-unda iştirak etmək üçün hər bir LOT üzrə ayrı-ayrılıqda aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderin müvafiq LOT-unda iştirak etmək üçün yazılı müraciət;*
- *tenderin müvafiq LOT-unun iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *müvafiq LOT üzrə tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *müvafiq LOT üzrə tender təklifi dəyərinin 1 (bir) faizdən az olmayan həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri;*
- *müvafiq LOT üzrə tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *digər sənədlər (tenderin LOT-lar üzrə əsas şərtlər toplularında göstərilən bütün digər sənədlər).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə LOT-lar üzrə iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.
İddiaçılar hər bir LOT üzrə tender təkliflərini qapalı, möhürlənmiş və imzalanmış ikiqat zərflərdə iki nüsxədə (üzərində əsli və surəti yazılmış) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin əsli və surəti arasında fərqlər olduqda üstünlük üzərində "Əsli" sözü yazılmış nüsxəyə veriləcəkdir.
Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil etdikləri dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.
Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 12 (on iki) ay müddətinə icra olunmalıdır.
Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:
- iddiaçı tərəfindən qiymətləndirmə işlərinə dair təklif olunan üsullar, yanaşma və işin idarə edilməsi ilə bağlı təkliflər;
- iddiaçının bu sahədəki iş təcrübəsi;
- təklif olunan işçi heyətinin peşəkarlığı, təcrübəsi və səriştəsi;
- görüləcək işlərin dəyəri.

İddiaçılar öz təkliflərini əsas şərtlər toplularında göstərilən müddəalara uyğun olaraq hazırlamalı, LOT-lar üzrə tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) 14 may 2019-cu il tarixə qədər (saat 17:00-dək), tender təklifini və təklifin bank təminatını isə qapalı, möhürlənmiş, imzalanmış ikiqat zərflərdə 22 may 2019-cu il tarixə qədər (saat 17:00-dək) Bakı şəhəri, Yusif Səfərov küçəsi, 50 (otaq № 812, əlaqələndirici şəxs - Şəbnəm Şahvələdova) ünvanına təqdim etməlidirlər.
Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.
İddiaçıların tender təklifləri 23 may 2019-cu il il tarixdə (saat 15:00-da) Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (otaq № 310) ünvanında açılacaqdır.
Zərflər iddiaçıların hər bir LOT üzrə səlahiyyətli nümayəndələrinin iştirakı ilə onların təqdimolunma ardıcıllığına uyğun açılacaq və təkliflər elan ediləcəkdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Dövlət Radiotezliklər İdarəsi nəqliyyat vasitələrinə illik servis xidmətinin satın alınması məqsədilə *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir.**
Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər.
Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.
Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Dövlət Radiotezliklər İdarəsinin Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə, 6-cı mərtəbə (əlaqələndirici şəxs: Qaryağdı Nağıyev, əlaqə telefonu: +99412-598-21-37) ünvanından ala bilərlər.

**İştirak haqqı: 500 (beş yüz) manat**

**H/H: AZ78AZPO91015461200420100072**
**Bankın adı: "Azərpoçt" MMC PF1**
**Bankın VÖEN-i: 9900037711**
**Bankın kodu: 691011**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin qiymətinin 1 faizi həcmində bank təminatı (zərfin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilmə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Sosial Müdafiə Fonduna borcun olub-olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulan digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.
İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 16 may 2019-cu il saat 17:00-a kimi, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 30 may 2019-cu il saat 17:00-a kimi Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə, 6-cı mərtəbə, Dövlət Radiotezliklər İdarəsinə təqdim etməlidirlər.
Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.
İddiaçıların təklifləri 31 may 2019-cu il saat 11:00-da Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə ünvanında açılacaqdır.
İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

*Təkrar*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**
Rabitə kabellərinin və birləşdiricilərin (fast konnektor) satın alınması.
Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.
Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.
Tenderdə iştirak etmək istəyənlər
**2000 (iki min) manat iştirak haqqını**
sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1, kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.
Tenderdə iştirak etmək istəyənlər **15 may 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1% Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **23 may 2019-cu il saat 17:00-a** qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).
Tender proseduru **24 may 2019-cu il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.
Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: **Məmmədov Faiq,**
**tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi *açıq tenderə dəvət edir*

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Hökumət Evində 2-ci və 9-cu mərtəbələrin əsaslı təmir və yenidənqurma işlərinin satın alınması üzrə açıq tender elan edir.
Tenderdə əsaslı təmir və yenidənqurma işlərinin görülməsi sahəsində ixtisaslaşan peşəkar rezident və qeyri-rezident hüquqi şəxs, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsium da daxil olmaqla) iştirak edə bilərlər.
Tenderdə iştirak etmək istəyənlər 1000 (bir min) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürdükdən sonra tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (Əmlak Məsələləri Dövlət Komitəsi, otaq № 806, tel.: +99412 490-24-08, əlavə 242; faks: +99412 490-33-59) ünvanından ala bilərlər.

**Emitent**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**Bank kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**SWIFT: BIK: CTREAZ22**
**Alan**
**Əmlak Məsələləri Dövlət Komitəsi**
**VÖEN: 2000015631**
**H/H: AZ84CTRE00000000000002647970**
**Büdcə səviyyəsinin kodu: 7**
**Büdcə təsnifatının kodu: 142340**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *digər sənədlər (tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.
İddiaçılar tender təkliflərini qapalı, möhürlənmiş və imzalanmış ikiqat zərflərdə iki nüsxədə (üzərində əsli və surəti yazılmış) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin əsli və surəti arasında fərqlər olduqda üstünlük üzərində "Əsli" sözü yazılmış nüsxəyə veriləcəkdir.
Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil etdikləri dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.
Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 6 (altı) ay müddətində icra olunmalıdır.
Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:
- iddiaçının bu sahədəki iş təcrübəsi;
- iddiaçının görüləcək işlərin təşkilinə dair təklifləri;
- görüləcək işlərin dəyəri.

İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) 14 may 2019-cu il tarixə qədər (saat 17:00-dək), tender təklifini və təklifin bank təminatını isə qapalı, möhürlənmiş, imzalanmış ikiqat zərflərdə 22 may 2019-cu il tarixə qədər (saat 17:00-dək) Bakı şəhəri, Yusif Səfərov küçəsi, 50 (otaq № 806, əlaqələndirici şəxs - Tural Qurbanov) ünvanına təqdim etməlidirlər.
Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.
İddiaçıların tender təklifləri 23 may 2019-cu il tarixdə (saat 11:00-da) Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (otaq № 310) ünvanında açılacaqdır.
Zərflər iddiaçıların səlahiyyətli nümayəndələrinin iştirakı ilə onların təqdimolunma ardıcıllığı üzrə açılacaq və təkliflər elan ediləcəkdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 16 fevral, 01 mart və 03 aprel 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına avtoşinlərin və nəqliyyat vasitələri üçün ehtiyat hissələrinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 07 may 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 08 may 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.
Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarə olunması departamentinin Satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az +99412 431-47-67(2249).

***Tender komissiyası***

## Atəşkəs rejimi 23 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.
Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.
Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Elman Rüstəmov və bankın kollektivi Mərkəzi Bankın İdarə Heyətinin katibi Mətanət Kərimovaya həyat yoldaşı

**VƏLİ HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Terapevtik və pediatrik propedevtika kafedrasının professoru Rafiq Təhməzova anası

**ELMİRA XANIM MAHMUDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9096
Sifariş 1361
Qiyməti 40 qəpik